QARABAĞ AZƏRBAYCANDIR!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 027 (6227) 12 fevral 2021-ci il Qiyməti 40 qəpik

"Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı.

# İlham Əliyev: "Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir"



*Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasında çıxış edib*

Bax 2

## Mehriban Əliyeva: Biz azad olunmuş ərazilərdə bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik

Bax 4



ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə fevralın 11-də videokonfrans formatında tədbir...

## "Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları"

Bax 6




Fevralın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) birgə təşkilatçılığı ilə "Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları"...

## "Siyasi dialoqun Azərbaycan modeli" mövzusunda görüş keçirilib



Siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsi bilavasitə demokratik ənənələrin inkişafına xidmət edən təcrübədir. Azərbaycan iqtidarı müxtəlif təşəbbüslər vasitəsilə...

Bax 5

## Numan Kurtulmuş: "Görüləcək işlər həm Türkiyəyə, həm də Azərbaycana böyük fayda gətirəcək"



"Partiyalar arasında bundan əvvəl keçirilən konfransda müharibə davam edirdi. Biz o zaman bu müharibənin Azərbaycanın zəfəri ilə başa çatacağına inamımızı ifadə etmişdik. Belə də oldu. Qələbə münasibətilə qəhrəman Azərbaycan ordusunu...

Bax 8

## Hulusi Akar: "Bütün dünya bilsin ki, bundan sonra da Azərbaycanın yanındayıq"



Bax 5

Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Bunu Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Qars şəhərində keçirilən "Qış təlimi-2021"-in yekun mərhələsində deyib. Nazir çıxışında bildirib ki, bunun təkcə sözdə olmadığını Qarabağdakı 44 günlük müharibə göstərdi. "Minsk qrupu 30 ildə heç bir iş görmədi. Düşmən yeni hücumlara başladı, Azərbaycan yetər artıq...

## Xüsusi təyinatlı: Bizim formanı geyinmişdilər, dilimizi də bilirdilər



Bax 7

## Gültəkin Hacıbəyli reallığı: korrupsioner, satqın və xəyanətə alışıq tipaj



Bax 14

## Messi 900-cü matçına çıxdı, "Barselona" uduzdu



Bax 16

# İlham Əliyev: "Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir"

*Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasında çıxış edib*

**Fevralın 11-də Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclası keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda çıxış edib.**



Prezident İlham Əliyevin çıxışı

-Hörmətli komissar Simson.

Hörmətli komissar Varhelyi.

Xanımlar və cənablar.

Əziz dostlar.

Cənub Qaz Dəhlizi Məşvərət Şurasının VII iclası videokonfrans vasitəsilə keçirilir. Bu, pandemiyanın nəticəsində yaranmış yeni reallıqdır. Buna baxmayaraq, əminəm ki, bizim birgə fəaliyyətimizin nəticəsi hər zaman olduğu kimi əhəmiyyətli olacaqdır. Məşvərət Şurasının ilk iclası mənim xatirimdədir. O zaman biz birgə işimizə yeni başlamışdıq və bu gün keçmişə nəzər saldıqda mühüm nailiyyətlərin şahidi oluruq. Yeri gəlmişkən, hər il Bakıda toplaşarkən biz görülən işləri nəzərdən keçirir və gələcək addımlarımızı planlaşdırırıq.

Şadam ki, bugünkü iclasda iştirak edən ölkələrin sayı əvvəlkindən artıqdır. Hazırda burada 18 ölkə, 19 şirkət və 5 aparıcı beynəlxalq maliyyə təsisatı iştirak edir. Biz vahid komanda olaraq çalışırıq və hesab edirəm ki, bu, bizim uğurumuzun başlıca səbəbidir.

Əlbəttə, əvvəlcə hər birimizi Cənub Qaz Dəhlizinin inşasının başa çatdırılması münasibətilə təbrik etmək istəyirəm. Ötən ilin sonuncu günü əlamətdar olmuşdur. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP layihəsinin yekunlaşdırılması tarixi nailiyyətdir. Əminəm ki, bizim birgə fəaliyyətimiz davam edəcəkdir, çünki yeni plan və ideyalarımız var. Həmin plan və ideyalar bugünkü iclasda mütləq müzakirə ediləcəkdir.

Mən bütün tərəfdaşlarımıza təşəkkürümü bildirmək istəyirəm. Bu nəhəng layihənin inşasında iştirak edən dövlətlər - Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya və İtaliya hökumətlərinə minnətdaram. Avropa Komissiyasına təşəkkür edirəm, çünki Azərbaycan və Avropa Komissiyası 10 il əvvəl Bakıda Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanat imzalamışdır. Bu, bizim fəaliyyətimizin başlanğıc nöqtəsi idi. Bu 10 il ərzində biz Avropa Komissiyası ilə fəal şəkildə əməkdaşlıq etmişik və Azərbaycan və Avropa Komissiyası Məşvərət Şurasının həmsədrləridir.

Mən ABŞ və Böyük Britaniya hökumətlərinə təşəkkürümü bildirmək istəyirəm. Tərəfdaşlarımız olan hər iki ölkənin hökuməti bizim bütün təşəbbüslərimizi hər zaman dəstəkləmiş, Azərbaycan və onun qonşuları və tərəfdaşları ilə birlikdə əvvəllər də uğurla həyata keçirdiyi müxtəlif nəhəng layihələrin icrası zamanı bizə çox güclü dəstək vermişdir.

Əlbəttə, şirkətlər bu layihəyə güclü sadiqlik nümayiş etdirməsə idi, onun reallaşması mümkünsüz olardı. Burada həqiqətən də bu nəhəng enerji layihəsinin həyata keçirilməsi ilə bağlı vahid ideya ətrafında toplaşmış şirkətlərdən ibarət böyük bir qrup mövcuddur. Bu mənada mən Azərbaycan və BP arasında strateji tərəfdaşlığın əhəmiyyətini xüsusi vurğulamaq istəyirəm. BP bizim strateji tərəfdaşımızdır, 27 ildir ki, Azərbaycanda fəaliyyət göstərən şirkətdir və qarşıda hələ neçə onilliklər ərzində əməkdaşlığımız var. Buraya Azərbaycanda neft və qaz sahəsi, o cümlədən resursların nəqli ilə bağlı bütün əhəmiyyətli layihələr daxildir.

## Prezident: Azərbaycan Xəzər dənizinin Şərq sahilindən olan enerji ehtiyatlarının nəqli üçün etibarlı tranzit ölkəsinə çevrilib

Buradan aparıcı beynəlxalq maliyyə təsisatlarına - Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Asiya İnkişaf Bankına, Avropa İnvestisiya Bankına və Asiya İnfrastruktur İnvestisiya Bankına təşəkkürümü bildirmək istəyirəm. Bu beş böyük beynəlxalq maliyyə institutu layihədə iştirak etmiş və onun həyata keçirilməsinə mühüm töhfələr vermişdir.

Bu, bir daha onu nümayiş etdirir ki, komanda şəklində aparılan iş yaxşı nəticə verir. Biz əhəmiyyətli irəliləyişə nail olmuşuq. Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir. Bu gün enerji təhlükəsizliyi bütün ölkələrin milli təhlükəsizlik məsələsidir. Enerjinin şaxələndirilməsi də istehlakçı və istehsalçı ölkələr üçün vacibdir. Beləliklə, zənnimcə, biz misilsiz əməkdaşlıq formatına nail olmuşuq. Düzgün hesablanmış maraqlar balansı var ki, burada istehsalçı olan Azərbaycanın maraqları tranzit və istehlakçı ölkələrin maraqları ilə üst-üstə düşür. Məhz bunun nəticəsində bəzilərinin o qədər də real hesab etmədikləri bir layihənin həyata keçirilməsi mümkün olmuşdur.

Cənub Qaz Dəhlizi layihəsinə nəzər saldıqda, onun bir çox parametrlər üzrə çox nadir olduğunu görə bilərik. Onun uzunluğu 3500 kilometrdir və layihə 7 ölkəni birləşdirir. Həmin ölkələr arasında sıx əməkdaşlıq olmasa idi, onu reallaşdırmaq mümkünsüz olardı. Boru xətti çox mürəkkəb coğrafi məkanlardan, hündürlüyü 2500 metr olan dağlardan, 100 kilometrdən artıq hissəsi isə Adriatik dənizinin dibindən keçir. Cənub Qaz Dəhlizi mövcud olan ən yüksək ekoloji standartlara cavab verir və bu, həmin layihənin planlaşdırılması və icrası zamanı bizim üçün başlıca şərt olmuşdur.

Layihənin dəyərinə gəldikdə, ilkin olaraq dəyər 44,6 milyard dollar məbləğində hesablanmışdı. Lakin səmərəli idarəçilik və düzgün planlaşdırma nəticəsində layihənin dəyəri 33 milyard dollara enmişdir. Bunun özü əhəmiyyətli bir nailiyyətdir. Çünki adətən tikinti layihələrinin icrası zamanı dəyər azalmır, əksinə, artır. Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan layihəyə 10 milyard dollar həcmində əhəmiyyətli maliyyə töhfəsi vermişdir və biz Cənub Qaz Dəhlizinin həyata keçirilməsinin hər dörd seqmentində - "Şahdəniz", Cənubi Qafqaz boru kəməri, TANAP və TAP-da iştirak etmişik. Bunların hamısı bizim komanda şəklində işləməyimizin təzahürüdür.

Bir daha 10 il əvvəl Bakıda Avropa Komissiyasının o zamankı prezidenti cənab Barrozu və mənim tərəfimdən imzalanmış Birgə Bəyanatın əhəmiyyətini vurğulamaq istərdim. Cənub Qaz Dəhlizinə dair Birgə Bəyanatın imzalanması həqiqətən də əlamətdar hadisə idi. Ancaq həmin bəyanatın imzalanması artıq əldə edilmiş irəliləyişə görə mümkün olmuşdur. O zaman - 1994-cü ildə Azərbaycan fəal şəkildə dünyanın aparıcı enerji şirkətləri ilə işləməyə başlamış və "Əsrin müqaviləsi" imzalamışdır. Bu, bizim enerji strategiyamızın reallaşdırılması istiqamətində atılmış vacib addım idi.

Tərəfdaşlarımıza bəzi mühüm tarixi nailiyyətləri xatırlatmaq istəyirəm. 1994-cü il bizim bütün nəhəng layihələrimiz üçün başlanğıc nöqtəsi hesab oluna bilər. 1996-cı ildə Azərbaycan və beynəlxalq enerji şirkətlərindən ibarət konsorsium "Şahdəniz" yatağı ilə bağlı müqavilə imzalamışdır. Hazırda həmin yataq Cənub Qaz Dəhlizinin yeganə təbii ehtiyat mənbəyidir, ancaq əminəm ki, digər yataqlardan da əlavə qaz həcmləri olacaqdır. 1997-ci ildə xarici şirkətlər tərəfindən Xəzərdə ilk neftin hasil edilməsi reallığa çevrilmişdir. Azərbaycan Xəzər dənizində fəaliyyət göstərmək üçün xarici neft şirkətlərini dəvət edən ilk ölkə olmuşdur. Daha sonra 1999-cu ildə biz Bakıdan Gürcüstanın Supsa liman şəhərinədək uzanan boru kəmərini istifadəyə verdik. Bu, gələcək sərmayə qoyuluşu baxımından çox vacib idi, çünki buna qədər bizim dünya bazarına çıxışımız yox idi. Azərbaycan dənizə çıxışı olmayan ölkədir. Bu səbəbdən bizim boru kəmərlərinə ehtiyacımız var idi və beləliklə, 1999-cu ildəki nailiyyətimiz əhəmiyyətli dəyişiklik yaratdı.

**Ardı Səh. 3**

# İlham Əliyev: "Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir"

*Prezident İlham Əliyev Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin videokonfrans formatında VII iclasında çıxış edib*

Əvvəli Səh. 2



Daha sonra biz 2006-cı ildə istifadəyə verilmiş Bakı-Tbilisi-Ceyhan əsas neft boru kəməri ilə bağlı işlərimizi planlaşdırmağa başladıq. Bu, Xəzər dənizinin Aralıq dənizi ilə birləşdirilməsi demək idi. Biz artıq təchizat marşrutlarının şaxələndirilməsinə nail olduq. 2007-ci ildə biz Azərbaycandan Gürcüstana, oradan isə Türkiyəyə uzanan qaz boru kəmərinin inşasını başa çatdırdıq. Bunun özü də tarixdə bir ilk idi - Azərbaycan qonşu ölkələri təbii qaz ilə təmin etməyə başladı. Nəhayət, 2012-ci ildə, Avropa İttifaqı ilə bəyanatın imzalanmasından bir il sonra, biz Azərbaycan və Türkiyə arasında TANAP layihəsinin inşası ilə bağlı müqavilə imzaladıq. Bu, Cənub Qaz Dəhlizinin həyata keçirilməsi baxımından çox mühüm hadisə idi. 2018-ci ildə TANAP-ın icrası başa çatdıqdan sonra, 2020-ci ildə TAP layihəsi də yekunlaşdırılmışdır.

Bunların hər biri əhəmiyyətli nailiyyətlərdir. Bu gün keçmişə nəzər saldıqda görürük ki, bütün bu nailiyyətlər olmasa idi, bir-birimizi təbrik etdiyimiz bugünkü mərasim mümkünsüz olardı. Ancaq biz gələcəyə baxmalıyıq. Biz böyük nailiyyətlər əldə etmişik, lakin əminəm ki, bu gün Məşvərət Şurasının toplantısı çərçivəsində iştirakçılar gələcək planlarımızı müzakirə edəcəklər. Azərbaycana gəldikdə, biz enerji resurslarımızı inkişaf etdirməyə davam edəcəyik. Hazırda kəşfiyyat və hasilat mərhələsində olan bir neçə yataqla bağlı çox ümidverici perspektivlər var. Xüsusilə 400 milyard kubmetr qaz ehtiyatına malik olan "Babək" yatağını qeyd edə bilərəm. "Abşeron" qaz-kondensat yatağının 350 milyard kubmetr ehtiyatı var və ümid edirəm ki, orada hasilat gələn il başlayacaqdır. Digəri isə "Ümid" yatağıdır ki, orada ən azı 200 milyard kubmetr təbii qaz ehtiyatı mövcuddur. Bunlar təsdiqlənmiş ehtiyata malik olan yataqlardır ki, onlar Xəzər dənizinin Azərbaycana məxsus sektorunda qaz hasilatına töhfə verəcəkdir. Kəşfiyyat mərhələsində olan digər layihələr də var və biz növbəti illərdə yeni kəşflərin olacağına ümid edirik. Beləliklə, şaxələndirilmiş bu neft-qaz kəmərləri şəbəkəmizin hasilat gücünün artırılmasına xidmət edəcəkdir.

Birgə planlarımıza gəldikdə, əminəm ki, bu gün siz İonik-Adriatik boru kəmərinə dair məsələləri müzakirə edəcəksiniz. Əlbəttə, TAP-ın başa çatdırılması İonik-Adriatik boru kəmərinin inşasına imkan yaradır. Biz Qərbi Balkan ölkələri ilə anlaşma memorandumlarını artıq imzalamışıq. İonik-Adriatik boru kəməri həyata keçirildikdən sonra biz təchizat marşrutlarımızı şaxələndirmək imkanı əldə edəcəyik və Qərbi Balkan dövlətləri üçün də yeni imkanlar yaradacağıq.

Şaxələndirmə haqqında danışarkən qeyd etməliyik ki, bizim layihə yalnız marşrutların deyil, həm də mənbələrin şaxələndirilməsindən ibarətdir. Bu, olduqca vacib məsələdir və real şaxələndirmə deməkdir. Azərbaycan qazı Avropa üçün yeni, etibarlı və uzunmüddətli mənbədir. Çünki bizim təsdiqlənmiş təbii qaz ehtiyatımız 2,6 trilyon kubmetr təşkil edir və yeni məlumatlara görə bu həcm daha da artıq ola bilər. "Azəri-Çıraq-Günəşli" yatağında "dərin qaz" adlanan layihəni də nəzərə alsaq, bizim potensialın mənzərəsi daha da aydın olar.

## *Prezident İlham Əliyev: Cənub Qaz Dəhlizi enerji təhlükəsizliyi və enerjinin şaxələndirilməsi layihəsidir*

Sizlərə daha bir vacib tədbirlə bağlı məlumat vermək istərdim. Bu da Azərbaycan və Türkmənistan arasında "Dostluq" yatağına dair Anlaşma Memorandumunun imzalanmasıdır. Bu yataq azərbaycanlı geoloq və neftçilər tərəfindən sovet dövründə kəşf edilmişdir. Yəni, kəşf edilmiş yataqdır. Bu yatağın işlənilməsinə dair baza prinsiplərinin hazırlanması üçün çox vaxt tələb edildi və biz onu "Dostluq" adlandırdıq. Bu, Xəzər hövzəsində çox əlamətdar hadisədir. Bu ilin yanvar ayında həmin memorandum imzalandı və əminəm ki, tezliklə biz bütün şərtləri razılaşdıraraq yekun müqaviləni imzalayacağıq. Bu, Xəzər dənizi və onun hüdudlarından kənarda gələcək enerji əməkdaşlığı üçün də çox faydalı olacaqdır.

Onu da qeyd etmək istəyirəm ki, Azərbaycan artıq Xəzər dənizinin şərq sahilində olan enerji ehtiyatlarının nəqli üçün etibarlı tranzit ölkəyə çevrilib. Uzun illərdir ki, biz Xəzərin şərqində yerləşən tərəfdaşlarımız üçün Bakı-Tbilisi-Ceyhan boru kəməri və ölkəmizin dəmir yolu sistemi vasitəsilə vacib nəqliyyat marşrutları üzrə təchizatı təmin edirik. Yəni, Azərbaycan özünü etibarlı tranzit ölkə kimi təsdiq etmişdir.

Diqqətinizə çatdırmaq istədiyim digər bir məqam, bizim bərpa edilən enerjiyə dair planlarımızla bağlıdır. Biz hazırda dünyanın aparıcı enerji şirkətləri ilə danışıqlar mərhələsindəyik. Biz artıq onların ikisi ilə inşaat üçün zəruri sənədləri imzalamışıq. Bunların biri günəş, digəri isə külək enerjisi stansiyalarıdır ki, onların toplam gücü 440 meqavatdır. Bu layihələr 100 faiz xarici sərmayə hesabına icra olunacaq. Azərbaycanın sərmayə mühiti olduqca münbitdir. Dünya Bankının hesabatına görə, Azərbaycan biznes fəaliyyəti üçün imkanlar baxımından 30 aparıcı dövlət sırasındadır. Bərpa olunan enerji sahəsinə sərmayələrin cəlb edilməsi bizim bərpa olunan enerji mənbələrinə dair strategiyamıza və potensialımıza uyğundur.

Bununla yanaşı, işğal edilmiş ərazilərimizin azad olunmasından sonra həmin ərazilərdə günəş, külək və su ehtiyatları vasitəsilə elektrik enerjisinin istehsalı üçün yeni imkanlar yaranmışdır. Bu baxımdan mən ölkələrinizdən olan şirkətləri bizim tərəfdaşlarımız olmağa dəvət edirəm. Mən artıq rəsmi olaraq azad edilmiş əraziləri "yaşıl enerji" ilə təmin ediləcək bölgə elan etmişəm. Biz artıq master-plan üzərində çalışırıq və nəhəng su, günəş və külək potensialından istifadə edərək həmin layihələri icra edəcəyik.

Daha bir layihə bütün azad olunmuş ərazilərdə "ağıllı şəhərlər"in yaradılmasıdır ki, bununla bağlı da hazırlıq işləri gedir. İşğaldan azad olunmuş ərazilərin Ermənistan tərəfindən darmadağın edilməsini nəzərə alsaq, bu, böyük bir çağırışdır, lakin biz bunun öhdəsindən qısa müddət ərzində gəlmək və keçmiş köçkünlərimizi doğma torpaqlarına qaytarmaq məsələsinə sadiqik. Bununla da ölkənin imkanlarını, əzmini və gələcəyə baxışını nümayiş etdirmək niyyətindəyik.

Hesab edirəm ki, böyük neft və qaz potensialına sahib, xam neft və neft məhsullarının, təbii qaz və elektrik enerjisi ixracatçısı olan Azərbaycan böyük məsuliyyət nümayiş etdirməli və "yaşıl enerji"yə fəal şəkildə sərmayə yatırmalıdır. Biz məhz bununla məşğuluq. Bununla bağlı planlarımı bölüşdüm və əminəm ki, onlar həyata keçiriləcəkdir. Sadəcə olaraq, tərəfdaş və dostlarımızı məlumatlandırmaq istədim ki, belə imkanlar da mövcuddur.

Artıq dediyim kimi, Cənub Qaz Dəhlizinin başa çatdırılmasını qeyd etdiyimiz bir vaxtda biz gələcəyə baxmalı, yeni plan və ideyalar üzərində işləməliyik. Ümid edirəm ki, pandemiya bitdikdən sonra biz yenidən Bakıda görüşə biləcəyik, çünki Bakı ənənəvi olaraq Məşvərət Şurasının toplantılarının keçirildiyi şəhərdir. Fürsətdən istifadə edərək, birgə fəaliyyətimizi davam etdirmək üçün sizi gələn il Bakıya səfərə dəvət edirəm. Diqqətinizə görə sağ olun.

XXX

İclasın açılış sessiyasında Avropa Komissiyasının enerji məsələləri üzrə komissarı xanım Kadri Simson, qonşuluq siyasəti və genişlənmə danışıqları üzrə komissarı Oliver Varhelyi və Azərbaycanın energetika naziri Pərviz Şahbazov çıxış ediblər.

Konsorsium üzvləri tərəfindən Cənub Qaz Dəhlizinin tamamlanmasına dair hesabat təqdim olunduqdan sonra nazirlər və nümayəndə heyətlərinin rəhbərləri məruzə ediblər.

İclasda Azərbaycan da daxil olmaqla 18 ölkənin nazirləri və digər yüksək səviyyəli nümayəndələri iştirak ediblər. Tədbirə layihədə iştirak edən dünyanın 5 aparıcı beynəlxalq maliyyə qurumunun və 18 aparıcı şirkətinin rəhbərləri də qatılıb.

# Mehriban Əliyeva: Biz azad olunmuş ərazilərdə bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik

**ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə fevralın 11-də videokonfrans formatında tədbir keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva tədbirdə videoformatda çıxış edib. Tədbir iştirakçılarını salamlayan ICESCO-nun Baş direktoru Salim əl-Malik gənc nəslin gələcəyində elmin oynadığı rolun əhəmiyyətini vurğuladı. O, ICESCO tərəfindən elan olunan "Qadınlar ili" çərçivəsində qadınların elmdə iştirakına dair tədbirlərin keçiriləcəyini qeyd etdi.**



Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva ICESCO-nun "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü münasibətilə keçirdiyi tədbirdə videoformatda çıxış edib

## Mehriban Əliyeva: **Azərbaycan qadınlara seçki hüququ verən ilk ölkələrdən biri olaraq tarixə düşüb**

Tədbirdə mötəbər şəxslərin çıxış edəcəyini deyən Salim əl-Malik əvvəlcə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın videoçıxışını təqdim etdi.

Birinci vitse-prezident Mehriban Əliyevanın çıxışı

-Hörmətli ICESCO-nun Baş direktoru doktor Salim əl-Malik.

Xanımlar və cənablar.

Əziz dostlar.

İlk olaraq belə bir mötəbər tədbirdə fəxri qonaq qismində iştirak üçün nəzakətli dəvətə görə Baş direktora təşəkkürümü bildirmək istərdim.

Bu, mənim üçün böyük şərəfdir və mən bu dəvəti bizim qadınların təhsil və elmdə iştirakının inkişafı ilə bağlı siyasətimizin yüksək qiymətləndirilməsinin təzahürü hesab edirəm.

Mən İslam mədəni irsinin qorunması və müsəlman dünyasında təhsil və elmin təşviqi ilə bağlı İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının nəcib missiyasını təqdir edir və Azərbaycan ilə ICESCO arasında məhsuldar əməkdaşlığı minnətdarlıqla qeyd edirəm.

BMT Baş Assambleyasının qəbul etdiyi, 11 fevral tarixini "Qadınlar və qızlar elmdə" Beynəlxalq Günü elan edən qətnaməyə uyğun olaraq, bugünkü müzakirə mövzusuna Baş direktor tərəfindən diqqətin yönəldilməsini alqışlayıram.

Əziz dostlar, qlobal çağırışlara cavab vermək üçün elm, texnologiya və innovasiya zərurətə çevrilib. Elm və gender bərabərliyi "Davamlı İnkişaf üzrə 2030 Gündəliyi" daxil olmaqla, beynəlxalq inkişaf məqsədlərinə nail olunması üçün mühüm əhəmiyyətə malikdir.

ICESCO-nu 2021-ci ili "Qadınlar ili" elan etməsi ilə bağlı təşəbbüsünə görə təbrik etmək istəyirəm. Bu, yalnız təşkilat tərəfindən qadınların cəmiyyətimizdəki roluna verilən əhəmiyyətin təzahürü deyil. Bu, həmçinin onların daha firavan və təhlükəsiz dünya naminə misilsiz töhfəsinin təsdiqidir. Biz bu gün COVID-19 ilə mübarizənin ön cəbhəsində dayanan qadın alim, həkim və səhiyyə işçilərinə ehtiramımızı ifadə etməliyik. Biz test üsullarının təkmilləşdirilməsindən tutmuş vaksinlərin hazırlanmasına qədər COVID-19 ilə mübarizənin müxtəlif mərhələlərində həlledici rol oynayan tədqiqatçı qadınlarımızla fəxr edə bilərik.

Mən yalnız onunla fəxr etmirəm ki, dünyada ilk dəfə, - bir əsrdən öncə, - sənaye üsulu ilə neft quyusunun qazıldığı, Şərqdə ilk operanın açıldığı və ən vacib olan, müsəlman dünyasında ilk demokratik respublikanın yaranmasına görə tanınan ölkədənəm. Azərbaycan həm də 1918-ci ildə qadınlara seçmək və seçilmək hüququnu verən ilk ölkələrdən biri olaraq tarixə düşmüşdür. Qızların təhsilinə gəldikdə isə, müsəlman Şərqində ilk dünyəvi qızlar məktəbi azərbaycanlı xeyriyyəçi Zeynalabdin Tağıyev tərəfindən 1901-ci ildə mənim doğulduğum Bakı şəhərində yaradılmışdır.

Bu gün Azərbaycanda savadlılıq səviyyəsi 100 faizə yaxındır. Qadınlar ölkəmizdə ali təhsil ocaqlarında magistrlərin 54 faizini, fəlsəfə doktorlarının 51 faizini, elmlər doktoru dərəcəsinə malik olanların 46 faizini və elmi tədqiqatçıların 56 faizini təşkil edir. Azərbaycan Milli Elmlər Akademiyasının ümumi kollektivinin 59 faizi qadınlardan ibarətdir.

Bununla yanaşı, sürətlə dəyişən dünyamızda qızların təhsili və onların elm sahəsində iştirakı yeni çağırışlara müvafiq olmalıdır. Dünyada elm, texnologiya, mühəndislik və riyaziyyat fənləri üzrə təhsil alanların 35 faizi qızlardır. Bizim ölkədə bu rəqəm 40 faizdir, yəni orta dünya göstəricisindən artıqdır.

Qeyd etdiyim kimi, bir çox azərbaycanlı qadın elmə böyük töhfələr verib və onlar elm sahəsi ilə məşğul olan qızlar və gənc xanımlar üçün əsl ilham mənbəyidir. Lakin bu gün ən vacib məsələ qızlar və gənc xanımların iştirak səviyyəsinin yaxşılaşdırılması üçün münbit şəraitin yaradılmasının davam etdirilməsi və elm sahəsində gender boşluğunun doldurulmasıdır.

Bir nümunə olaraq bu yaxınlarda BMT-nin İnkişaf Proqramı ilə bərabər başladığımız "Qadınlar elm, texnologiya, mühəndislik və riyaziyyatda" adlı mentorluq proqramını qeyd edə bilərəm ki, burada məqsəd tələbə və gənc xanımların həmin sahədə uğur qazanmış nümunəvi şəxslərlə təmas yaratması və onlara təhsil və karyera sahəsində qarşıya çıxan məsələlərin həlli üçün məsləhətlərin verilməsidir.

Xanımlar və cənablar, razılaşaq ki, elm, texnologiya və innovasiya dünyada cəmiyyətlərin sosial-iqtisadi inkişafının aparıcı qüvvəsidir. ICESCO-nun xoşməramlı səfiri qismində mən bütün üzv dövlətlərə bu sahələrə daha çox sərmayə yatırmağa, habelə zəruri siyasət və birgə fəaliyyət planları işləyib hazırlamağa dair çağırış edirəm. Biz qadınlar və qızların sabahın əmək bazarına lazımi bacarıqlara yiyələnmələri üçün innovativ maliyyə mexanizmləri yaratmalıyıq. Azərbaycan bu mənada öz töhfəsini verməyə hazırdır.

Hörmətli tədbir iştirakçıları, qeyd edilənlərlə yanaşı, mən fürsətdən istifadə edərək, Ermənistanın işğal etdiyi ərazilərimizin 30 ildən sonra Azərbaycan tərəfindən azad olunması və tarixi ədalətin bərpası ilə nəticələnən ötənilki 44 günlük Vətən müharibəsi zamanı dəyərli dəstəyinə görə ICESCO-ya, şəxsən onun Baş direktoru doktor Salim əl-Malikə dərin minnətdarlığımı ifadə etmək istəyirəm. Bir ay bundan əvvəl Azərbaycan Prezidentinin dəvətinə əsasən Baş direktorun rəhbərliyi ilə ICESCO-nun nümayəndə heyəti Azərbaycanda səfərdə olmuşdur. Qonaqlarımız azad olunmuş bəzi ərazilərə səfər etmək imkanı əldə etmiş və onlarla məscidlərimizin təhqir olunması və yüzlərlə tarixi abidələrimizin dağıdılması daxil olmaqla, ümumi dağıntı və vandalizmin miqyasının şahidi olmuşlar.

Hazırda dövlət qarşısında azad olunmuş ərazilərin canlandırılması və azərbaycanlı məcburi köçkünlərin doğma yurdlarına təhlükəsiz qayıdışının təmin edilməsi kimi nəhəng vəzifə dayanır. Biz bunun öhdəsindən gələcəyik. Biz dağıdılmış şəhərləri və kəndləri bərpa edəcəyik. Biz orada məktəblər tikəcəyik. Biz yalnız müsəlmanlara deyil, bütün dinlərə məxsus mədəni irsi bərpa edəcəyik. Biz işğal zamanı zərər görmüş mədəni irs abidələrinin vəziyyətinin qiymətləndirilməsində ICESCO-nun Azərbaycan hökuməti ilə birgə çalışmağa hazır olduğunu yüksək qiymətləndiririk. Eyni zamanda, ICESCO-nun Azərbaycanda regional nümayəndəlik təsis etməsi imkanının nəzərdən keçirilməsinə görə xüsusi minnətdarlığımızı bildiririk. Həmin nümayəndəlik digər sahələrlə yanaşı, qadınlar və qızların elmdə rolunun artırılmasına konkret diqqət yetirməklə elm sahəsində əməkdaşlığımızı gücləndirə bilər.

Sonda ICESCO-ya nəcib və mühüm işində uğurlar diləyir, bütün iştirakçılara və onların yaxınlarına cansağlığı, səadət və xoşbəxtlik arzu edirəm. Sağ olun.

XXX

Baş direktor Salim əl-Malik:

-Birinci vitse-prezident, ICESCO-ya və alimlərə ünvanladığınız bu ruhlandırıcı çıxışa görə sağ olun. Biz Sizin bu tədbirdə iştirakınızı yüksək qiymətləndiririk. Əmin ola bilərsiniz ki, ICESCO elm, təhsil, mədəniyyət sahələrində bütün üzv dövlətlərə dəstəyini göstərəcək. Bir daha minnətdaram.

XXX

Tədbirdə çıxış edənlər qlobal səviyyədə təhsil sahəsində mövcud boşluğun aradan qaldırılmasının, bu sferada gender bərabərliyinin təmin edilməsinin vacibliyini vurğuladılar. Bildirdilər ki, gənc qızların elmlə məşğul olmalarını, qadınların elm sahəsində karyerasını düzgün qurmalarını təmin etmək mühüm məsələdir. Vurğulandı ki, bəşəri problemlərin həlli üçün qadınlar daha çox elmə cəlb olunmalı, inklüziv və keyfiyyətli təhsillə təmin edilməlidirlər.

# “Siyasi dialoqun Azərbaycan modeli” mövzusunda görüş keçirilib

**Siyasi münasibətlərdə dialoq mühitinin dəstəklənməsi bilavasitə demokratik ənənələrin inkişafına xidmət edən təcrübədir. Azərbaycan iqtidarı müxtəlif təşəbbüslər vasitəsilə dialoq məfhumunun aktuallığının qorunmasını təmin edir. Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan sistemli islahatlar, eyni zamanda, siyasi münasibətlər sistemini də əhatə edir. Dövlətimizin başçısının “Bu gün siyasi sahədə çox genişmiqyaslı islahatlar aparılır.**

*“Müharibədən əvvəl artıq ölkəmizdə yeni bir siyasi iqlim yaranmışdır, müsbət iqlim. Çünki bizim hamımızın, bütün vətənpərvər qüvvələrin bir amalı var idi - torpaqlarımızın işğaldan azad edilməsi. Biz, Azərbaycan iqtidarı buna da nail olduq. Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək vəzifəsi durur”*



Deyə bilərəm ki, müstəqillik dövründə miqyasa və nəticəyə görə bu günə qədər islahatların bu səviyyədə aparılması müşahidə edilmirdi. Hakimiyyət tərəfindən təklif edilmiş siyasi dialoq demək olar ki, baş tutur və biz artıq bu dialoqun ilkin müsbət təzahürlərini görürük. Demək olar ki, ölkəmizin bütün əsas siyasi qüvvələri bu dialoqa qoşularaq buna öz müsbət münasibətini bildirmişlər. Beləliklə hesab edirəm ki, növbəti illərdə siyasi sistemin təkmilləşdirilməsi, müasirləşdirilməsi, Azərbaycanda siyasi münasibətlərin sağlam zəmində qurulması işində önəmli addımlar atılacaqdır” fikri, əslində, Azərbaycanda aparılan islahatlar kontekstində siyasi dialoqa ayrılan strateji əhəmiyyətdən xəbər verir. Siyasi proseslərdə iştirak edən tərəflər arasında sağlam münasibətlərin qorunması və bu münasibətlərin tənzimlənməsi üçün fərqli təşəbbüslər reallaşmaqdadır. Ölkəmizin artıq gündəlik siyasi təcrübəsinə daxil olmuş iqtidar-müxalifət dialoqu davamlı şəkildə inkişaf edir.

Ümummilli maraqlar və dövlətin rifahı naminə ölkədə siyasi dialoq mühitinin dəstəklənməsi strateji əhəmiyyətə malikdir. Dayanıqlı siyasi dialoq mühitinin qorunması kontekstində isə sözügedən məfhumun əhalinin ictimai şüurunda əks olunması məsələsi aktuallaşır. Odur ki, elmin müxtəlif sahələrinin metodoloji potensialına müraciət edərək mövzunun Azərbaycan cəmiyyətində təşviqi vacib vəzifədir. Təsadüfi deyil ki, siyasi dialoq mühitinin təşviqi, eləcə də konkret məsələlərin, o cümlədən qanun layihələrinin, sosial problemlərin, siyasi və digər təzahürlərin müvafiq sahələrin mütəxəssisləri ilə birgə müzakirəsi təcrübəsi artıq ölkəmizin siyasi reallığının ayrılmaz xüsusiyyətlərindəndir.

AZƏRTAC xəbər verir ki, fevralın 11-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə videokonfrans formatında “Siyasi dialoqun Azərbaycan modeli” adlı ilk görüş təşkil olunub. Ölkəmizin qabaqcıl ali təhsil müəssisələrinin, həmçinin AMEA-nın müvafiq institutlarının rəhbər və mütəxəssislərinin iştirakı ilə keçirilmiş tədbirdə siyasi dialoqun müxtəlif təzahür formaları müzakirə edilib.

Tədbiri giriş sözü ilə açan adıçəkilən şöbənin müdiri Ədalət Vəliyev ölkə rəhbərliyi adından alim və mütəxəssisləri salamlayaraq, Azərbaycanda aparılan sistemli islahatlar, o cümlədən dayanıqlı demokratik ənənələrinin formalaşmasına xidmət edən siyasi dialoq məfhumunun təşviqində, xüsusilə ölkədə dialoq mühitinin qorunmasının vacibliyini və bu istiqamətdə görülmüş işlər haqqında geniş məlumat verib.

Siyasi prosesləri müxtəlif aspektlərdən tədqiq edən alimlərlə açıq müzakirələrin təşkil olunmasını yüksək qiymətləndirən Administrasiya rəsmisi siyasi dialoqun ənənələrinin formalaşmasında alim və tədqiqatçıların əvəzolunmaz rolunu vurğulayıb, siyasi dialoqun fəlsəfi, sosial, iqtisadi, tarixi və digər təzahür formalarının müəyyənləşdirilməsi istiqamətində mövcud fəaliyyətin daha effektiv olduğunu qeyd edib.

Dayanıqlı inkişafın, siyasi sabitliyin, həmrəylik mühitinin və demokratik ənənələrin təminatçısı olan siyasi dialoqun qorunması və inkişafının dövlət siyasətinin strateji vəzifəsi olduğunu bildirən Ədalət Vəliyev bu məsələdə bütün potensialların səfərbər edilməsinin vacibliyini vurğulayıb.

Alim və mütəxəssislər ilə ilk görüşün məhz Vətən müharibəsində qazanılan Qələbədən sonrakı dövrə təsadüf etdiyini əlamətdar hadisə kimi qiymətləndirən Administrasiyanın şöbə müdiri Prezident İlham Əliyevin fikrini səsləndirib: “Müharibədən əvvəl artıq ölkəmizdə yeni bir siyasi iqlim yaranmışdır, müsbət iqlim. Çünki bizim hamımızın, bütün vətənpərvər qüvvələrin bir amalı var idi - torpaqlarımızın işğaldan azad edilməsi. Biz, Azərbaycan iqtidarı buna da nail olduq. Bu gün isə bizim qarşımızda bu Qələbəni siyasi yollarla möhkəmləndirmək vəzifəsi durur”. Ölkənin inkişafında strateji resurs hesab olunan milli və siyasi həmrəyliyin qorunması işində bütün mövcud potensialların səfərbər olunmasının vacibliyini vurğulayan Ədalət Vəliyev alimlərin bu proseslərdə xüsusi rolunu da qeyd edib.

Dialoqun Azərbaycan milli mədəniyyətinə məxsus keyfiyyətlərdən biri olduğunu yada salan natiq ölkəmizdə əsrlər ərzində formalaşmış tolerant və multikulturalizm mühitinin qorunmasının vacibliyini də qeyd edib. Kontekst inkişaf etdirilərək mövcud istiqamətdə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva tərəfindən görülmüş işlər haqqında məlumatlar tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

Sonra tədbirdə iştirak edən AMEA-nın Hüquq və İnsan Hüquqları İnstitutunun direktoru, professor Aytən Mustafazadə “Həmrəylik - Prezident İlham Əliyevin dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi”, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov “Siyasi dialoqun tarixi əhəmiyyəti”, AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunun direktoru, professor İlham Məmmədzadə “Dialoq demokratik münasibətlərin təzahürü kimi”, AMEA-nın Tarix İnstitutunun direktor müavini, professor Cəbi Bəhramov “Azərbaycan milli tarixi elminin ölkənin ictimai-siyasi həyatında yeri və rolu: siyasi dialoq konteksti”, AMEA-nın Elm Tarixi İnstitutunun elmi katibi Zaur Əliyev “Siyasi dialoq sağlam rəqabətin təminatçısı kimi”, Azərbaycan Turizm və Menecment Universitetinin professoru İbrahim Əliyev “Müstəqil Azərbaycan Respublikasının təşəkkülü və yüksəlişində milli birlik amili”, AMEA-nın Qafqazşünaslıq İnstitutunun Gürcüstanşünaslıq şöbəsinin müdiri, dosent Vahid Ömərov “Azərbaycanda uğurlu siyasi dialoq siyasəti”, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri, professor Namiq Əliyev “Vətən müharibəsində əldə olunan böyük Qələbə və milli həmrəylik”, AMEA İqtisadiyyat İnstitutunun dosenti Ramil Əliyevin “İqtisadiyyatın inkişafında dialoq amili”, Bakı Dövlət Universitetinin Sosial iş kafedrasının müdiri, dosent Üzeyir Şəfiyevin “İctimai münasibətlər və siyasi dialoq”, həmçinin Azərbaycan Dillər Universitetinin nümayəndəsi Sərraf Hüseynov “Ölkəmizdə müxtəlif siyasi baxışları olan gənclər arasında siyasi dialoq mühiti” və AMEA-nın Şərqşünaslıq İnstitutunun şöbə müdiri Səməd Bayramzadə “Azərbaycanda siyasi dialoq ənənələri” mövzuları üzrə məruzələrlə çıxış ediblər.

Tədbirə yekun vuran Administrasiyanın rəsmisi Prezident İlham Əliyevin “Hakimiyyət tərəfindən atılan addımlar, siyasi dialoqun başlanması və müxalifət partiyaları tərəfindən buna müsbət reaksiya verilməsi müstəqillik dövründə tam yeni vəziyyətin yaradılmasına gətirib çıxarır. Müstəqillik dövründə bu sahədə heç vaxt belə müsbət mənzərə müşahidə edilmirdi” fikrini səsləndirərək bildirib ki, məhz dövlətimizin başçısının siyasi iradəsi və demokratik dəyərlərə sadiqliyi nəticəsində ölkəmizdə dialoq mühiti inkişaf edib.

Vətən müharibəsi dövründə dünya ictimaiyyəti Azərbaycanda mütləq siyasi həmrəyliyin, həmçinin bütün xalqın bir yumruq olaraq böyük Qələbə naminə Prezident İlham Əliyevin ətrafında sıx birləşməsinin şahidi olduğunu bildirən tədbir iştirakçıları siyasi proses və tendensiyaların tədqiqinə, eləcə də demokratik dəyərlərin təşviqinə xidmət edən təşəbbüslərin icrasında elmi potensialın cəlb olunmasını yüksək qiymətləndiriblər.

## Ərdoğan Azərbaycanla bağlı sazişi təsdiqləyib



Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş”i təsdiqləyib. Bu barədə Türkiyənin “Resmi Gazete”sində məlumat verilib. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

Qeyd edək ki, “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Mədəniyyət mərkəzlərinin təsis olunması, iş mexanizmi və fəaliyyətləri haqqında Saziş” 2018-ci ilin 25 aprelində Ankarada imzalanıb.

## Hulusi Akar: “Bütün dünya bilsin ki, bundan sonra da Azərbaycanın yanındayıq”



Türkiyə və Azərbaycan qardaş ölkələrdir. Bunu Türkiyənin Milli müdafiə naziri Hulusi Akar Qars şəhərində keçirilən “Qış təlimi-2021”-in yekun mərhələsində deyib.

Nazir çıxışında bildirib ki, bunun təkcə sözdə olmadığını Qarabağdakı 44 günlük müharibə göstərdi. “Minsk qrupu 30 ildə heç bir iş görmədi. Düşmən yeni hücumlara başladı, Azərbaycan yetər artıq deyib, öz torpaqlarını işğaldan azad etdi və bu mübarizəni zəfərlə taclandırdı. Azərbaycanlı qardaşlarımız güvən və rifah içində həyatlarını davam etdirəcəklər. Biz bir millət, iki dövlət, bir yumruq, bir ürək olmaqda qərarlıyıq. Hər zaman Azərbaycanın yanında olduq, bundan sonra da olacağımızı bütün dünyanın bilməsi lazımdır”.

## Zakir Həsənov və Hulusi Akar Türkiyə-Azərbaycan təlimlərini izləyiblər



Türkiyənin Qars şəhərində Azərbaycan Ordusunun Naxçıvandakı Əlahiddə Ümumqoşun Ordusunun hərbi qulluqçularının da iştirak etdiyi “Qış təlimi-2021” adlı birgə təlimlərinin Müşahidəçilər günü keçirilir. Bu barədə “Anadolu” agentliyi məlumat yayıb. Təlimlərdə F-16 qırıcıları və zərbə PUA-ları müəyyən edilmiş hədəflərə dəqiqliklə zərbə endiriblər. Azərbaycanın müdafiə naziri, general-polkovnik Zakir Həsənov və türkiyəli həmkarı Hulusi Akar təlimləri izləyirlər.

# “Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları”

## Yeni Azərbaycan Partiyasının və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə bu mövzuda videokonfrans keçirilib




**Fevralın 11-də Yeni Azərbaycan Partiyasının (YAP) və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AKP) birgə təşkilatçılığı ilə “Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları” mövzusunda videokonfrans keçirilib.**

Əvvəlcə konfransın moderatorları, YAP-ın Türkiyə üzrə koordinatoru, Milli Məclisin deputatı Ramil Həsən və AKP-nin beynəlxalq əlaqələr şöbəsinin müdir müavini, Türkiyə Parlamentinin üzvü Mehmet Ceylan keçirilən tədbirin önəmini vurğulayıblar.

Konfransda çıxış edən Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov tədbir iştirakçılarını salamlayıb və qeyd edib ki, bu gün hər iki ölkənin hakim partiyaları arasında yeni layihəyə start verilir. Bu layihə çərçivəsində hər iki partiya ölkələrimiz arasında münasibətlərə, əməkdaşlığa həsr olunmuş müxtəlif tədbirlər, konfranslar keçirəcək. Əli Əhmədov qeyd edib ki, 2020-ci il təkcə Azərbaycan üçün deyil, bütövlükdə Türk dünyası üçün əlamətdar il oldu. 30 il ərzində işğal altında olan Qarabağ torpağı Azərbaycanın müzəffər ordusu tərəfindən azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, tarixi haqsızlığa son qoyuldu, öz yurdlarından didərgin düşmüş insanların doğma torpaqlarına qayıtmaq imkanları tanınmış oldu. Düşünürəm ki, bu qələbənin əldə olunması bir sıra ciddi səbəblərlə əlaqədardır. İlk növbədə, İkinci Qarabağ savaşında qazanılan qələbənin kökündə dayanan başlıca amil Azərbaycan dövlətinin gücü və qüdrətidir. Digər səbəb isə, Azərbaycan cəmiyyətinin nümayiş etdirdiyi birlikdir. Bu savaş dönəmində hansı düşüncənin daşıyıcısı olmasından asılı olmayaraq, hamı bir yumruq kimi birləşdi. Bizim möhtəşəm qələbəmizin digər əsas mühüm amili Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan ordusunun gücü, əsgərlərimizin qəhrəmanlığıdır.

O həmçinin qeyd edib ki, bu qələbənin əldə olunmasında bizə böyük dəstək göstərmiş qardaş Türkiyənin xüsusi rolu qeyd edilməlidir. Müharibə başlayan ilk andan Türkiyə dövləti, hər bir türk vətəndaşı Azərbaycanın yanında olduğunu qəti şəkildə bəyan etdi. Müharibənin davam etdiyi günlərdə biz bu dəstəyi daim hiss etdik. Məxsusi olaraq Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana verdiyi dəstək inamımızı daha da gücləndirdi və qələbəmizin təmin olunmasında çox böyük qardaşlıq dəstəyi, mənəvi dəstək kimi əhəmiyyətli rol oynadı. Nə qədər beynəlxalq təzyiqlər olsa da, Türkiyə qardaşlıq dəstəyi mövqeyindən geri çəkilmədi.

Əli Əhmədov bu məsələdə Prezident İlham Əliyevin müstəsna rolunu xüsusi qeyd edib: “Azərbaycanın möhtəşəm qələbəsinin əldə olunmasında Prezident İlham Əliyevin müstəsna rolu bütün dünya tərəfindən etiraf olunur. Bu qələbə Prezident İlham Əliyevin zəfəri kimi səciyyələndirlir. Hesab edirik ki, bütün türk dünyası da bu düşüncələri bölüşür”.

YAP Sədrinin müavini söyləyib ki, İkinci Qarabağ savaşında əldə etdiyimiz qələbə yaşadığımız bölgədə yeni mənzərə yaradır: “Bu, bir tərəfdən, təhlükəsizlik amilidir, digər tərəfdən isə yeni iqtisadi əməkdaşlıq imkanlarıdır. Bu qələbə təkcə Azərbaycan üçün deyil, bölgədə yaşayan bütün xalqlar üçün nemətdir, desəm səhv etmərəm. Çünki təhlükəsizlik daha etibarlı bünövrə üzərində qurulub. Digər tərəfdən, bölgə xalqları arasında iqtisadi əməkdaşlıq əlaqələr yaranıb ki, bu da yalnız hər kəsə fayda verəcək”.

“Bu gün əsasını qoyduğumuz layihənin ümumi adı Türkiyə-Azərbaycan qardaşlığıdır. Bu qardaşlığın simvolu Ulu Öndər Heydər Əliyevin “bir millət, iki dövlət” kəlamında çox aydın ifadə olunur. Dünyada elə iki dövlət tanımaq olmaz ki, onlar arasındakı dostluq Türkiyə və Azərbaycan arasında olan dostluq və qardaşlıq qədər saf, səmimi və etibarlı olsun. Bu qardaşlıq əsrlər boyu sınaqlardan çıxıb. Çanaqqala döyüşündə xalqlarımızın çiyin çiyinə döyüşməsi, Qafqaz İslam Ordusunun Azərbaycanı işğaldan azad etmək üçün ölkəmizə gəlməsi bu sınaqlardandır. İkinci Qarabağ savaşı isə bu qardaşlıq münasibətlərini bir daha təsdiq etdi”,-deyə Əli Əhmədov vurğulayıb.

Baş nazirin müavini qeyd edib ki, Türkiyə işğaldan azad edilən ərazilərimizin bərpası işində də Azərbaycanın yanında olacaq. Ermənilər həmin əraziləri tamamilə məhv edib. Türkiyənin quruculuq-bərpa işində yaxından iştirak etməsi qardaşlığın yeni nümunəsi olaraq. YAP Sədrinin müavini hər iki ölkənin liderləri - Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlər arasında əlaqələrin gücləndirilməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

Əli Əhmədov partiyalar arasında növbəti tədbirlərin Ankarada, İstanbulda, Bakıda, Şuşada və digər ərazilərdə keçiriləcəyinə ümidvar olduğunu bildirib.



Videokonfransda qəhrəman Azərbaycan Ordusunu hörmətlə salamlayan AKP Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Numan Kurtulmuş xatırladıb ki, partiyalar arasında bundan əvvəl keçirilən konfransda müharibə davam edirdi: “Biz o zaman bu müharibənin Azərbaycanın zəfəri ilə başa çatacağına inamımızı ifadə etmişdik. Belə də oldu. Qələbə münasibətilə qəhrəman Azərbaycan ordusunu, Azərbaycan xalqını təbrik edirəm. Qarabağın azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Türkiyə Azərbaycanın haqlı mübarizəsində daim onun yanında oldu. Prezident İlham Əliyevin liderli ilə Azərbaycan zəfər qazandı. Bundan sonrakı dövrdə görüləcək işlər həm Türkiyəyə, həm də Azərbaycana böyük fayda gətirəcək”.

Numan Kurtulmuş deyib ki, Qarabağ zəfəri ilə regionda yeni dövr üçün əməkdaşlıq baxımından qapılar açıldı. Bu zəfər dünyanın yeni düzənə keçdiyi dövrdə xüsusilə əhəmiyyətlidir. Belə həssas dönəmdə Azərbaycan və Türkiyə xüsusilə güclü olmalıdır. Onun sözlərinə görə, hazırda Asiya, Avropa, Rusiya və ABŞ iqtisadi imkanlarını genişləndirmək üçün müxtəlif layihələrlə çıxış edirlər. Bunların sırasında Çinin “Bir kəmər, bir yol” layihəsi cəlbedicidir.

AKP Sədrinin birinci müavini qeyd edib ki, ölkələrimiz arasında iqtisadi münasibətlər daha da inkişaf etdirilməlidir: “Biz indiyədək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri vasitəsilə enerji sahəsində əməkdaşlıq edirik. TANAP layihəsi, Bakı-Tbilisi-Qars dəmiryolu xətti də birgə həyata keçirdiyimiz layihələrin mühüm tərkib hissəsidir. İndi biz Qarabağ zəfərindən sonra yeni imkanlarımızı dəyərləndirməli, yeni layihələr həyata keçirməliyik. Geniş ortaq istehsal imkanları da ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi baxımından mühüm amildir. Azərbaycanın zəfərindən sonra bölgədə 6 ölkə arasında əməkdaşlıq imkanları yaranıb ki, bu da həmin ölkələrin rifahına əhəmiyyətli təsir göstərəcək. Naxçıvan üzərindən keçəcək yeni yol bu baxımdan əhəmiyyətli rol oynayacaq. Naxçıvan dəhlizinin açılması ön Asiya və Orta Asiyaya çıxış imkanlarımızı daha da genişləndirəcək. Hesab edirəm ki, biz gələcəkdə birgə layihələrimizlə regional aktordan qlobal güc amilinə çevrilməliyik”.

Numan Kurtulmuş çıxışının sonunda YAP ilə AKP arasında əməkdaşlığın daha da güclənəcəyinə əminliyini ifadə edib.

Tədbirdə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı Azərbaycan və Türkiyə arasında iqtisadi əlaqələrin perspektivlərindən danışıb. Bildirib ki, son 15 il ərzində ölkələrimiz arasında ticarət əlaqələri 9 dəfə artıb. Hazırda ölkələr arasında ticarət dövriyyəsinin səviyyəsi 2.5 milyard dollar həcmindədir. Yaxın zamanlarda ticarət dövriyyəsinin 15 milyard dollar həcminə çatdırılması istiqamətində işlər görülür. Müqayisə üçün deyək ki, bu gün Türkiyə ilə Çin arasında ticarət dövriyyəsi 20 milyard dollar həcmindədir.

V.Qasımlının sözlərinə görə, 2002-2019-cu illərdə ölkələr arasında qarşılıqlı sərmayənin səviyyəsi də diqqəti cəlb edir. Belə ki, bu dövrdə Türkiyə Azərbaycana 11 milyard dollar, Azərbaycan isə Türkiyəyə 19.5 milyard dollar həcmində investisiya yatırıb. SOCAR Türkiyə qardaş ölkənin xaricdən enerji asılılığını azaltmaq istiqamətində böyük işlər görür. Türkiyə şirkətləri də Azərbaycanda olduqca fəal iş aparırlar. Bu qarşılıqlı etimadın növbəti təzahürüdür.

V.Qasımlı qeyd edib ki, bütövlükdə Azərbaycanla Türkiyənin iqtisadi sahədə əməkdaşlığının böyük perspektivləri var. Bu amil bütövlükdə regionumuzun rifahına əhəmiyyətli təsir göstərəcək.

İstanbul Medipol Universitetinin SETA İqtisadi Araşdırmalar bölməsinin direktoru Nurullah Gür deyib ki, son ildə dünya, eləcə də ölkələrimiz həssas siyasi-iqtisadi dönəmdən keçir. Qarabağın erməni işğalından azad edilməsi Azərbaycan və Türkiyə üçün iqtisadi baxımdan da əhəmiyyətlidir. Belə ki, ölkələrimiz arasında yeni iqtisadi perspektivlər açılır. Nurullah Gür əmin olduğunu ifadə edib ki, Azərbaycan və Türkiyə bu fürsəti yüksək səviyyədə dəyərləndirəcək.

Ardı Səh. 7





# "Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları"

## Yeni Azərbaycan Partiyasının və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə bu mövzuda videokonfrans keçirilib

Əvvəli Səh. 6

YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri, Milli Məclisin deputatı Sevinc Fətəliyeva çıxışında qeyd edib ki, tarixi dostluq, qarşılıqlı etimad, səmimi münasibətlər, yüksək səviyyəli əməkdaşlıq əsasında qurulan Azərbaycan-Türkiyə əlaqələri daim möhkəmlənməkdədir. Xalqlarımızın eyni soykökünə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı bağlara malik olması bu iki ölkəni həmişə bir-birinə doğma edib, sevincli, kədərli günlərdə də biri digərinin yanında olub. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.

Onun sözlərinə görə, Ulu Öndər Heydər Əliyevin əbədiyyətə qədər yaşayacaq "Bir millət, iki dövlət" ifadəsi qardaşlıq şüarı kimi hər yerdə iftixarla səslənir. Ən xoş hal budur ki, artıq bu ifadənin təkcə Azərbaycan-Türkiyə münasibətlərini xarakterizə edən yox, bütün dost və qardaş ölkələr üçün işlədildiyinin şahidi oluruq.

Deputat qeyd edib ki, 44 günlük müharibə zamanı dost, qardaş Türkiyə Cümhuriyyətinin xalqımıza qəti dəstəyi Azərbaycanın işğalçı Ermənistan üzərində qələbəsində əhəmiyyətli rol oynadı. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyev arasında səmimi münasibətlər də şübhəsiz ki, qələbəyə öz töhfəsini vermiş oldu.

"Hazırda Azərbaycan hökumətinin qarşısında Qarabağı iqtisadi fəaliyyətin aparıcı halqalarından birinə çevirmək və bu diyarı Azərbaycanın ən qabaqcıl iqtisadi regionlarının inkişaf səviyyəsinə çatdırmaq vəzifəsi qoyulub. Xüsusilə, regionun iqtisadi aktivlik səviyyəsini işğaldan önceki vəziyyətə çatdırmaq və durmadan yüksəltmək nəzərdə tutulur. Bu çox vacib məsələdir. Belə ki, bərpa edilən iqtisadiyyat hesablanmalı, tezliklə öz doğma yurdlarına qayıdacaq və təbii ki, rahat, hər bir şeylə təmin edilmiş şəraitdə yaşamalı olan insanların tələbatına cavab verməlidir. İşğaldan azad edilmiş ərazilərin bərpası proqramı da məhz insanlara, onların tələbatlarına və diyarın sakinlərinin təhlükəsiz həyat fəaliyyətinin təmin edilməsinə yönəlib. Əminəm ki, bizim türkiyəli qardaşlarımız işğal edilmiş ərazilərin bərpası prosesinə tam dəstək verəcəklər. Türkiyənin podratçı şirkətləri artıq indidən burada fəaliyyət göstərir, yol infrastrukturunun tikintisi ilə məşğul olur, digər infrastruktur layihələrində iştirak edirlər. Tezliklə, bu proses genişmiqyaslı xarakter alacaq. Şübhəsiz ki, bu, iki ölkə iqtisadiyyatlarının bir-birindən asılılığını artıracaq, Azərbaycan-Türkiyə əməkdaşlığı amilini müharibədən sonrakı dövrdə regionda formalaşan yeni düzənin vacib elementinə çevirəcək",-deyə S.Fətəliyeva vurğulayıb.



Çıxış edən AKP Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə parlamentinin üzvü Efkan Ala hazırda dünyada yeni düzənin formalaşdığını qeyd edib. Bildirib ki, Azərbaycan və Türkiyə dövlət başçıları bu yeni düzəndə hansı siyasi xətt üzrə işlərin görülməsi ilə bağlı bütün dünyaya nümunələr göstərirlər. Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra hər iki dövlət başçısının apardığı siyasəti xüsusi vurğulamaq lazımdır. Dövlətlərimizin başçıları əldə edilən iqtisadi perspektivlərdən ölkələrimizin mənafeyi naminə maksimum yararlanmaq istiqamətində böyük işlər görürlər.

"Türkiyə və Azərbaycan xalqlarının bir-birinə yaxınlığı bütün sahələrdə özünü göstərir. Bu əlaqələrin böyük tarixi var. İki xalq və dövlət yaxşı və çətin günlərdə hər zaman bir-birinin yanında olub. Dövlət başçılarının qardaşlıq münasibətləri ölkələrimiz arasında əlaqələrin inkişafına əvəzsiz töhfələr verir. Ölkələrimiz iqtisadi-siyasi sahələrdə çiyin-çiyinə bərabər çalışırlar. Bu birlik işğaldan azad edilən torpaqların bərpasında da mühüm rol oynayacaq",-deyən Afkan Ala AKP və YAP arasında əlaqələrin də əhəmiyyətini qeyd edib. Onun sözlərinə görə, indiki məqamda əlaqələrimizi daha da gücləndirməliyik. Bizim birliyimiz dövlətlərimizin birliyinin daha da güclənməsinə xidmət edir.

Sonda AKP Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Numan Kurtulmuş və Azərbaycan Respublikası Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov konfransın əhəmiyyətini vurğulayaraq hər iki partiyanın əlaqələrinin inkişafından məmnunluqlarını ifadə ediblər.

*Nardar BAYRAMLI*

## Xüsusi təyinatlı: Bizim formanı geyinmişdilər, dilimizi də bilirdilər



44 günlük Vətən müharibəsində erməni əsgərləri Azərbaycan hərbçilərini pusquya salmaq üçün mümkün olan bütün hiyləgərliklərə əl atıblar. Buna baxmayaraq onların bütün plan və hiylələri özlərinin ağır itkilər verməsi ilə nəticələnib. Yaşma Xüsusi Təyinatlı Qüvvələrin tərkibində döyüşən baş çavuş Əfqan Zaxmayev "İki sahil"ə müsahibəsində belə hallarla bir neçə dəfə qarşılaşdıqlarını bildirib: "Xankəndinin Çanaqçı kəndində idik. Sabahkı tapşırıq üçün axşama doğru komandirimiz bizi mövqelərə böldü. Təyin olunan mövqeyimizə gedərkən qarşı tərəfdən bizim formada bir qrupun gəldiyini gördük. Təlimata əsasən məxfi parolu soruşduq, Azərbaycan dilində qarşılıq verdilər, parol doğru idi. Onlara tərəf getməyə başladıq, hardasa 50 metr məsafə qalmışdı ki, erməni dilində danışdıqlarını gördük və elə bu zaman atışma başladı. Sən demə içimizə sızmaq üçün bizim formanı geyiniblərmiş, dilimizi də bilirdilər. Olduğumuz mövqelərdə atışmağa başladıq. Qrup komandirim Əmrə Hüseynli yerindəcə şəhid oldu. Mən də orada yaralandım. Amma digər yoldaşlarımız düşmənin bütün qüvvələrini məhv edərək onların pusqusunu dəf etdilər".

*Taleh Bağırov*

## Mustafa Şentop: Ermənistanı qınamaq yerinə...



Dağlıq Qarabağ münaqişəsi ATƏT-in Minsk qrupu tərəfindən həll edilməli idi. "İki sahil" xəbər verir ki, bunu Türkiyə Böyük Millət Məclisinin (TBMM) sədri Mustafa Şentop 54 amerikalı senatorun Prezident Co Baydenə insan hüquqları məsələsində Türkiyəyə təzyiq etməsinə dair məktubuna münasibət bildirərkən deyib. "ABŞ da Minsk qrupunun həmsədrlərindən biridir. ABŞ beynəlxalq hüquqa görə bu problemi həll etmək istəyirdi. Bəs beynəlxalq hüquq nə deyir? BMT Təhlükəsizlik Şurasının 4 məlum qətnaməsində təsbit olunub ki, Ermənistan Azərbaycan torpaqlarının 20 faizini işğal edib. Dolayısı ilə beynəlxalq hüquqa görə Minsk Qrupu işğalçını o torpaqlardan çıxartmalı idi. ABŞ-ın da bu çərçivədə Azərbaycanın yanında olduğu qənaətinə gəlirik. Amma bu senatorlar nə deyirlər? Onlar Ermənistanı qınamaq yerinə Azərbaycanı və beynəlxalq hüquqa əsasən ona dəstək verən Türkiyəni tənqid edirlər", - deyə TBMM sədri vurğulayıb.

# “2020-ci il təkcə Azərbaycan üçün deyil, bütövlükdə Türk dünyası üçün əlamətdar il oldu”



**“2020-ci il təkcə Azərbaycan üçün deyil, bütövlükdə Türk dünyası üçün əlamətdar il oldu. 30 il ərzində işğal altında olan Qarabağ torpağı Azərbaycan müzəffər ordusu tərəfindən azad edildi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, tarixi haqsızlığa son qoyuldu, öz yurdlarından didərgin düşmüş insanların öz torpaqlarına qayıtmaq imkanları tanınmış oldu”. SİA-nın verdiyi məlumata görə, bu fikirləri Baş nazirinin müavini, YAP Sədrinin müavini-İcra katibi Əli Əhmədov bu gün “Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları” mövzusunda keçirilən videokonfransda deyib.**

Əli Əhmədov bildirib ki, bu qələbənin əldə olunması bir sıra ciddi səbəblərlə əlaqədardır. İlk növbədə, İkinci Qarabağ savaşında qazanılan qələbənin kökündə dayanan başlıca amil Azərbaycan dövlətinin gücü və qüdrətidir. Digər səbəb isə, Azərbaycan cəmiyyətinin nümayiş etdirdiyi birlikdir. Bu savaş dönəmində hansı düşüncənin daşıyıcısı olmasından asılı olmayaraq, hamı bir yumruq kimi birləşdi. Bizim möhtəşəm qələbəmizin digər əsas mühüm amili isə Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun gücü, əsgərlərimizin qəhrəmanlığıdır.

Onun sözlərinə görə, bu qələbənin əldə olunmasında ölkəmizə böyük dəstək göstərmiş qardaş Türkiyənin xüsusi rolu qeyd edilməlidir. Müharibə başlayan ilk andan Türkiyə dövləti, hər bir türk vətəndaşı Azərbaycanın yanında olduğunu qəti şəkildə bəyan etdi. Müharibənin davam etdiyi günlərdə biz bu dəstəyi hiss etdik. “Dünyada elə bir iki dövlət tanımaq olmaz ki, onlar arasındakı əlaqələr Türkiyə və Azərbaycan arasında olan münasibətlər kimi saf, səmimi və etibarlı olsun. Bu qardaşlıq əsrlər boyu çox sınaqlardan çıxıb. Çanaqqala döyüşü, Qafqaz İslam Ordusunun Azərbaycanı işğaldan azad etmək üçün ölkəmizə gəlməsi bu sınaqlardandır. İkinci Qarabağ savaşı isə bu qardaşlıq münasibətlərini bir daha təsdiq etdi”,- deyə Əli Əhmədov vurğulayıb.

Əli Əhmədov qeyd edib ki, Türkiyə işğaldan azad edilən ərazilərimizin bərpası işində də Azərbaycanın yanında olacaq. YAP Sədrinin müavini Türkiyə və Azərbaycan arasında əlaqələrin möhkəmlənməsində iki partiyanın böyük rol oynayacağından əminliyini ifadə edib. O, hər iki ölkənin liderləri - Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dövlətlər arasında əlaqələrin gücləndirilməsində mühüm rol oynadığını diqqətə çatdırıb.

***Ceyhun Rasimoğlu***

# İqor Korotçenko: Rusiya Azərbaycanı özünün mühüm strateji tərəfdaşı hesab edir

**Mən öz mövqeyimi Rusiya telekanallarının efirində jurnalistlər üçün şərh etmişəm. Mənim mövqeyim Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin mövqeyinə əsaslanır: Rusiya Azərbaycanın ərazi bütövlüyünü tanıyır.**



AZƏRTAC xəbər verir ki, rusiyalı məşhur hərbi ekspert, “Nasionalnaya oborona” jurnalının baş redaktoru İqor Korotçenko fevralın 11-də Bakıda Azərbaycanın aparıcı KİV nümayəndələri və respublika ictimaiyyətinin tanınmış xadimləri ilə görüşdə bu sözləri deyib.

Onun sözlərinə görə, Rusiya Azərbaycanın postsovet məkanında özünün mühüm strateji tərəfdaşı hesab edir. Ekspert deyib: “Siyasət, iqtisadiyyat, mədəni əlaqələr sahəsində Azərbaycanla Rusiyanın münasibətləri aladır. Ən başlıcası, ölkələrimizə çox güclü prezidentlər rəhbərlik edir. Bu, çox vacibdir. Müasir dünyada kənardan diktənin, daxili və xarici proseslərə təsir göstərmək cəhdlərinin hər hansı formalarını inkar edən, müstəqil, suveren siyasət yürütməyi bacaran ölkələrin sayı azdır, yəqin ki, belə ölkələrin sayı 10-dan çox olmaz. Şübhəsiz, həmin ölkələr arasında Rusiya və Azərbaycan da var. Dövlətlərimizin başçıları arasında çox səmimi, dostcasına münasibətlər var, Azərbaycan və Rusiya liderləri bir-birinə qarşılıqlı hörmət edirlər”.

Rusiyalı ekspert vurğulayıb ki, 44 günlük müharibənin yekunları faktiki olaraq müasir dünyanı dəyişib. O deyib: “Tam əminliklə deyə bilərəm ki, Azərbaycanın müharibədə qələbəsi ötən ilin əsas hərbi-siyasi hadisəsidir. müasirlərimiz bu hadisənin dünyada gedən proseslərə necə təsir edəcəyini hələ tam dərk etmirlər. Şuşa şəhərinin nəzarət altına alınması Qarabağda hərbi kampaniyada dönüş nöqtəsi oldu. “Böyük Ermənistan” yaratmaq planları həmişəlik alt-üst edildi. 44 günlük müharibənin real yekunları belədir. Bu müharibədə Azərbaycan qalib gəldi, Ermənistan isə darmadağın edildi”.

İ.Korotçenkonun sözlərinə görə, həqiqətən ədalətli müharibə, işğal olunmuş ərazilərin azad edilməsi uğrunda Vətən müharibəsi olmuş İkinci Qarabağ müharibəsində qələbə Azərbaycanın nüfuzunu və gücünü göstərdi. O deyib: “Şəxsən mən hesab edirəm ki, Azərbaycanın qələbəsi bir sıra amillərə görə qanunauyğun və labüd idi. Haqq-ədalət deyilən bir mühüm anlayış var və bu ədalət Azərbaycanın tərəfində idi. Bu müharibədə Azərbaycanın qələbəsi pilotsuz uçuş aparatlarının sayəsində deyil, hərbçilərin, xalqın, ölkənin və dövlət başçısının, Müzəffər Ali Baş Komandanın sayəsində mümkün oldu. Azərbaycanın qazandığı hərbi qələbədə Prezident İlham Əliyev mühüm rol oynadı, çünki müasir tarixdə şəxsiyyətin rolunu hələ heç kəs ləğv etməyib”.

Rusiyalı hərbi ekspert 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanat barədə söhbət açaraq qeyd edib ki, bu sənədi Ermənistanın qeyd-şərtsiz kapitulyasiyası aktı adlandırmaq olar. O deyib: “Ermənistanın hərbi-siyasi iflası elə bir amildir ki, onu hər hansı siyasətçinin hakimiyyətə qaytarılması yolu ilə inkar etmək mümkün deyil. Belə adlandırılan “Qarabağ klanı”nın nümayəndəsi Koçaryan Qarabağda müharibəni törədənlərdən biri olub və Ermənistan cəmiyyətində onu dəstəkləmirlər. Böyük siyasi gələcək Koçaryanın xam xəyalı, siyasi gündəlikdə öz yerini möhkəmlətmək arzusudur. Bu, “Qarabağ klanı”nın yox, erməni lobbisinin qisas cəhdi, Ermənistanda hadisələrin gedişinə təsir göstərməyə cəlb etmək istəyidir. Bu cəhdlərin uğursuz olması isə göz qabağındadır”.

İ.Korotçenkonun sözlərinə görə, işğal edilmiş ərazilərin azad olunması Azərbaycanın turizm və aqrar-sənaye sektorunun daha da inkişaf etməsinə şərait yaradacaq, iqtisadi sahədə Azərbaycana yeni uğurlar gətirəcək. O deyib: “Məlum olduğu kimi, ölkə iqtisadiyyatı istənilən dövlətin inkişafının əsası, onun müstəqilliyinin qarantı, cəmiyyətdə sabitliyin və səmərəli həyat fəaliyyətinin əsas şərtidir və Azərbaycan bu sahədə çox səmərəli inkişaf edir. Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat dəhlizləri yaradılması həm Azərbaycanın, həm də Ermənistanın mənafeyinə uyğundur”.

Ekspert bir məqamı da vurğulayıb ki, Azərbaycan dünyəvi dövlətdir, burada bütün mədəniyyətlərin və bütün dinlərin nümayəndələri özlərini rahat hiss edir. Görüşün sonunda tədbir iştirakçılarını maraqlandıran suallara cavab verilib.

# Numan Kurtulmuş: “Görüləcək işlər həm Türkiyəyə, həm də Azərbaycana böyük fayda gətirəcək”



“Partiyalar arasında bundan əvvəl keçirilən konfransda müharibə davam edirdi. Biz o zaman bu müharibənin Azərbaycanın zəfəri ilə başa çatacağına inamımızı ifadə etmişdik. Belə də oldu. Qələbə münasibətilə qəhrəman Azərbaycan ordusunu, Azərbaycan xalqını təbrik edirəm. Qarabağın azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizə Allahdan rəhmət diləyirəm. Türkiyə Azərbaycanın haqlı mübarizəsində daim onun yanında oldu. Prezident İlham Əliyevin liderli ilə Azərbaycan zəfər qazandı. Bundan sonrakı dövrdə görüləcək işlər həm Türkiyəyə, həm də Azərbaycana böyük fayda gətirəcək”. SİA-nın verdiyi məlumata görə, bunu bu gün Yeni Azərbaycan Partiyasının və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə “Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları” mövzusunda keçirilən videokonfransda AKP Sədrinin birinci müavini, Türkiyə Böyük Millət Məclisinin üzvü Numan Kurtulmuş deyib.

Numan Kurtulmuş deyib ki, Qarabağ zəfəri ilə regionda yeni dövr üçün əməkdaşlıq baxımından qapılar açıldı. Bu zəfər dünyanın yeni düzənə keçdiyi dövrdə xüsusilə əhəmiyyətlidir. Belə həssas dönəmdə Azərbaycan və Türkiyə xüsusilə güclü olmalıdır. Onun sözlərinə görə, hazırda Asiya, Avropa, Rusiya və ABŞ iqtisadi imkanlarını genişləndirmək üçün müxtəlif layihələrlə çıxış edirlər. Bunların sırasında Çinin “Bir kəmər, bir yol” layihəsi cəlbedicidir.

AKP Sədrinin birinci müavini qeyd edib ki, ölkələrimiz arasında iqtisadi münasibətlər daha da inkişaf etdirilməlidir: “Biz indiyədək Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum kəmərləri vasitəsilə enerji sahəsində əməkdaşlıq edirik. TANAP layihəsi, Bakı-Tbilisi-Qars dəmiryolu xətti də birgə həyata keçirdiyimiz layihələrin mühüm tərkib hissəsidir. İndi biz Qarabağ zəfərindən sonra yeni imkanlarımızı dəyərləndirməli, yeni layihələr həyata keçirməliyik. Geniş ortaq istehsal imkanları da ölkələrimiz arasında iqtisadi əlaqələrin genişləndirilməsi baxımından mühüm amildir. Azərbaycanın zəfərindən sonra bölgədə 6 ölkə arasında əməkdaşlıq imkanları yaranıb ki, bu da həmin ölkələrin rifahına əhəmiyyətli təsir göstərəcək. Naxçıvan üzərindən keçəcək yeni yol bu baxımdan əhəmiyyətli rol oynayacaq. Naxçıvan dəhlizinin açılması ön Asiya və Orta Asiyaya çıxış imkanlarımızı daha da genişləndirəcək. Hesab edirəm ki, biz gələcəkdə birgə layihələrimizlə regional aktordan qlobal güc amilinə çevrilməliyik”. Numan Kurtulmuş çıxışının sonunda YAP ilə AKP arasında əməkdaşlığın daha da güclənəcəyinə əminliyini ifadə edib.

# Efkan Ala: “Azərbaycan və Türkiyə dövlət başçıları bütün dünyaya nümunələr göstərirlər”



“Hazırda dünyada yeni düzən formalaşıb. Azərbaycan və Türkiyə dövlət başçıları bu yeni düzəndə hansı siyasi xətt üzrə işlərin görülməsi ilə bağlı bütün dünyaya nümunələr göstərirlər”. SİA-nın verdiyi məlumata görə, bunu AKP Sədrinin xarici əlaqələr üzrə müavini, Türkiyə parlamentinin üzvü Efkan Ala Yeni Azərbaycan Partiyasının və Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının birgə təşkilatçılığı ilə “Türkiyə-Azərbaycan qardaşlığı: Qarabağ müharibəsindən sonra regional iqtisadi əməkdaşlıq imkanları” mövzusunda keçirilən videokonfransda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, Azərbaycan torpaqlarının işğaldan azad edilməsindən sonra hər iki dövlət başçısının apardığı siyasəti xüsusi vurğulamaq lazımdır: “Dövlətlərimizin başçıları əldə edilən iqtisadi perspektivlərdən ölkələrimizin mənafeyi naminə maksimum yararlanmaq istiqamətində böyük işlər görürlər”.

“Türkiyə və Azərbaycan xalqlarının bir-birinə yaxınlığı bütün sahələrdə özünü göstərir. Bu əlaqələrin böyük tarixi var. İki xalq və dövlət yaxşı və çətin günlərdə hər zaman bir-birinin yanında olub. Dövlət başçılarının qardaşlıq münasibətləri ölkələrimiz arasında əlaqələrin inkişafına əvəzsiz töhfələr verir. Ölkələrimiz iqtisadi-siyasi sahələrdə çiyin-çiyinə bərabər çalışırlar. Bu birlik işğaldan azad edilən torpaqların bərpasında da mühüm rol oynayacaq”,-deyən Afkan Ala AKP və YAP arasında əlaqələrin də əhəmiyyətini qeyd edib.

Onun sözlərinə görə, indiki məqamda əlaqələrimizi daha da gücləndirməliyik. Bizim birliyimiz dövlətlərimizin birliyinin daha da güclənməsinə xidmət edir.

# Vüqar Rəhimzadə: Cənub Qaz Dəhlizi tərəfdaşlar və bütövlükdə Avropa üçün dostluq, qardaşlıq, əməkdaşlıq körpüsüdür

**"Azərbaycanın malik olduğu təbii resursların səmərəli istifadəsi regional və beynəlxalq əməkdaşlığın coğrafiyasının genişləndirilməsində stimulverici amil rolunu oynayır. Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının uğurları bugünümüzün reallıqlarıdır. Enerji sahəsində əməkdaşlığın regional çərçivədən çıxaraq coğrafiyasını daha da genişləndirməsi Azərbaycanın artan rolunun, möhkəmlənən mövqeyinin təqdimatıdır. Ölkəmizin iştirakçısı və təşəbbüsçüsü olduğu enerji layihərinin uğurlu icrası nəticəsində həm iştirakçı, həm də bütövlükdə dünya dövlətlərinin uzunmüddətli iqtisadi inkişafının təmin olunması üçün geniş imkanlar yaranır."**



Bu fikirləri Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru, siyasi elmlər doktoru Vüqar Rəhimzadə KİV-ə açıqlamasında bildirib.

V.Rəhimzadə diqqəti Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin ənənəvi olaraq Bakıda keçirilən görüşlərinin növbəti 7-ci toplantısına yönəldərək bildirib ki, Cənub Qaz Dəhlizi çoxtərəfli əməkdaşlığın başlanğıcı, ən əsası bu günədək enerji sektorunda görülən işlərin zirvəsi olaraq Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi qazandığı nüfuzun təsdiqidir: " 2014-cü ildə bu layihənin təməli qoyuldu. Layihə uğurla, vaxtında icra edilərək 2018-ci ildə rəsmi açılışı oldu. Azərbaycan ilk dəfə olaraq belə genişmiqyaslı beynəlxalq iqtisadi və siyasi əməkdaşlığı əhatə edən layihəyə start vermiş, onun təşəbbüskarı olmuşdur. Cənub Qaz Dəhlizinin rəsmi açılışı onu göstərdi ki, Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə çatır və ölkəmizin həyatında neft-qaz sənayesinin inkişafında yeni dövr başlayır."

Baş redaktor bildirib ki, 2018-ci ildə Cənub Qaz Dəhlizinin rəsmi açılışı ilə yanaşı, iyun ayında onun əsas tərkib hissələrindən biri olan TANAP-ın istifadəyə verilməsi dünyanın enerji xəritəsinin yenidən tərtib edilməsi istiqamətində Azərbaycanın təşəbbüslərinin dəstəklənməsi kimi dəyərləndirildi: "Möhtərəm Prezidentimizin qeyd etdiyi kimi, bu layihə əməkdaşlıq və qarşılıqlı etimadın uğurudur. Ümumilikdə, Cənub Qaz Dəhlizinin icrası Azərbaycanın zəngin qaz ehtiyatlarının Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla, şaxələndirilmiş formada çatdırılmasına geniş imkanlar açacaq."

"Müstəqilliyin başlıca şərti olan milli təhlükəsizliyin bilavasitə enerji təhlükəsizliyindən asılı olması ilə bağlı deyilənlərin sübutu Azərbaycanın timsalında özünün aydın ifadəsini tapır" söyləyən V.Rəhimzadə qeyd edib ki, son illərdə ölkəmizin təşəbbüsü ilə reallaşan möhtəşəm enerji və nəqliyyat layihələri bu həqiqətin təsdiqidir: "Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi iri neft-qaz layihələrinin ardıcılları, Avropanın ən nəhəng enerji layihələri olan TANAP və TAP Azərbaycanın dünyanın enerji gündəmindəki mövqeyini möhkəmləndirir, ölkəmizə regional və beynəlxalq marağı daha da artırır. Cənub Qaz Dəhlizinin sonuncu seqmenti olan TAP-ın 2020-ci ildə başa çatdırılması nəzərdə tutulmuşdu. Baxmayaraq ki, ötən ildə dünyanın, o cümlədən Azərbaycanın əsas diqqəti koronavirus infeksiyası ilə mübarizəyə yönəlmişdi, yenə də ölkəmiz heç bir layihənin icrasını yarımçıq saxlamadı, uğurlu sonluqla başa çatdırılmasına nail oldu. 2020-ci il dekabrın 31-də TAP-ın istifadəyə verilməsi də bunun təsdiqidir. Cənub Qaz Dəhlizi enerji resurslarının şaxələndirilməsində önəmi ilə fərqləndiyi kimi, həm də tərəfdaşlar, bütövlükdə Avropa məkanı üçün üçün dostluq, qardaşlıq, əməkdaşlıq körpüsüdür. Cənub Qaz Dəhlizi həm yeni yollar, həm də yeni mənbə layihəsidir."

Baş redaktor bildirib ki, Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin hər bir toplantısı ötən bir ilin yekunlarının və yeni muəyyənləşdirilən prioritetlərin təqdimatıdır: "O da məlumdur ki, 2014-cü ildə Cənub Qaz Dəhlizinin təməli qoyulduqdan sonra bu toplantıların 2015-ci ildən ənənəvi olaraq keçirilməsinə başlanıb. 7-ci toplantı bu mənada xüsusi diqqətçəkəndir ki, artıq Cənub Qaz Dəhlizinin sonuncu seqmentinin də icrası başa çatıb, bu layihənin perspektivləri, qarşıdakı dövrdə əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün atılacaq addımlar ətrafında fikir mübadiləsi aparılır. Uğurlarımız fonunda bu həqiqət də etiraf edilir ki, dünya birliyi üçün böyük əhəmiyyət kəsb edən qlobal layihələrin, beynəlxalq tədbirlərin reallaşması yalnız ən etibarlı və əsas tərəfdaş olan Azərbaycanın iştirakı ilə mümkündür: "Regionda dinamik inkişafı ilə liderliyini qoruyan, dünya siyasətinə təsir imkanları getdikcə genişlənən Azərbaycan daim iqtisadi əməkdaşlığın genişləndirilməsinə diqqəti artırır, region və dünya dövlətlərini bir araya gətirmək istiqamətində mühüm təşəbbüslərin müəllifi kimi çıxış edir, bu ideyaların gerçəkləşməsinə nail olur. Enerji layihələrinin müəllifi, istehsalçısı, təchizatçısı, tranzit ölkə kimi də tanınan, neft-qaz kəmərləri şəbəkəsini şaxələndirməklə dənizləri birləşdirən Azərbaycan əldə etdiyi nailiyyətlərə düşünülmüş siyasəti, beynəlxalq hüquq normalarına sadiqliyi ilə nail olur. Qarşılıqlı əməkdaşlığa, maraqlara xidmət edən bütün layihələrə böyük həssaslıqla yanaşan Azərbaycan hər zaman etibarlı tərəfdaş statusunu əməli işi ilə doğrultdur."

Vüqar Rəhimzadə bu ümumiləşdirməni aparıb ki, Cənub Qaz Dəhlizi layihəsi tərəfdaşlarının iştirakı ilə Bakıda keçirilən Məşvərət Şurası çərçivəsində nazirlərin bütün toplantılarında Azərbaycanın səyləri dünya enerji bazarına töhfələr verən və layihələrin şaxələndirilməsində təşəbbüskarlığı ilə fərqlənən tərəfdaş kimi dəyərləndirilir: "Hesab edirəm ki, Cənub Qaz Dəhlizinin icrası Azərbaycanın enerji diplomatiyasının növbəti təntənəsidir. Məsələyə bu nöqteyi-nəzərdən yanaşdıqda şübhəsiz ki, Azərbaycan qazının Avropa qitəsinə çatdırılması ölkəmizin iqtisadi qüdrətini daha da artıracaq, ölkəyə investisiya axınını gücləndirəcək. Neftqaz ixracından əldə olunan gəlirlər regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarından irəli gələn tapşırıqların icrasına yönəldilir. Nəzərə alaq ki, İkinci Qarabağ müharibəsində Zəfərimiz Böyük Qayıdışa yol açdı. Bu gün işğaldan azad edilmiş ərazilərimizdə quruculuq və bərpa işlərinə start verilib. Bu ərazilərin malik olduğu imkanlardan səmərəli istifadə daim öz aktuallığını qoruyan iqtisadiyyatın şaxələndirilməsini daha da sürətləndirəcək."

## Azərbaycan-Böyük Britaniya əlaqələrində yeni perspektivlər



Azərbaycanın milli maraqlarımıza uyğun olaraq apardığı müstəqil xarici siyasət, müstəqilliyimizin bərpasından ötən illər ərzində beynəlxalq münasibətlərdə özünü etibarlı tərəfdaş kimi sübut etməsi ölkəmizin beynəlxalq nüfuzunu getdikcə artırmaqa dostlarımızın və tərəfdaşlarımızın sayının çoxalmasına zəmin yaratmışdır. Vətən müharibəsindəki möhtəşəm qələbədən və uzun illər davam edən regionda sülhə və təhlükəsizliyə böyük təhdid olan Dağlıq Qarabağ münaqişəsinin həllindən sonra Azərbaycanın beynəlxalq nüfuzu daha da artmış, regionda yeni bir situasiya yaranmışdır.

Münaqişənin həllindən sonra regionda uzun müddətli və daimi sülhün və təhlükəsizliyin təmin edilməsi məqsədilə kommunikasiya xəttlərinin açılması istiqamətində atılan addımlar 3-4-5-6 tərəfli formatda iqtisadi əməkdaşlıq üçün münbit şərait yaratmışdır. Azərbaycan Respublikasının Prezidenti tərəfindən işğaldan azad olunmuş ərazilərin "yaşıl zona" elan edilməsi, "ağıllı şəhər", "ağıllı kənd" layihələri, Füzuli rayonunu ərazisində beynəlxalq təyyarə limanının inşaasına başlanması, Füzuli-Əhmədbəyli-Şuşa yolunun çəkilişi, Şuşa şəhərinin Azərbaycanın "Mədəniyyət paytaxtı" elan edilməsi, eyni zamanda Şuşanın həm də İslam Mədəniyyətinin Paytaxtı və Türk dünyasının paytaxtı elan edilməsi barədə təkliflər Azərbaycana dost ölkələrin və həmin ölkələrin şirkətlərinin regiona marağını daha da artırmışdır. Bu yaxınlarda İtaliyanın dünyaca məşhur "Maire Tecnimont" şirkətinin rəhbəri və nümayəndə heyətinin ölkəmizə səfəri, İtaliya şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpa işlərində iştirakı deyilənlərin sübutudur. Məlum olduğu kimi, bu günlərdə Böyük Britaniya Krallığının dövlət naziri xanım Vendi Morto Bakıya səfərə gəlmişdir.

Qeyd etmək zəruridir ki, Böyük Britaniya Azərbaycana dost ölkə olmaqla Azərbaycanın müstəqilliyini ilkin olaraq tanıyan ölkələr sırasındadır. Böyük Briyaniya dünyanın ən nəhəng neft şirkətlərindən olan "BP"-nin timsalında Azərbaycana 30 mlrd dollardan çox investisiya yatırıb. Hazırda Böyük Britaniyanın 600-dən çox şirkəti Azərbaycanda fəaliyyətdədir. Xanım Vendi Mortonun Bakıda keçirdiyi müxtəlif səviyyəli görüşlərdən və Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevlə görüş zamanı səslənən fikirlərdən məlum olmuşdur ki, "Əsrin Müqaviləsi" çərçivəsində "BP" ilə əməkdaşlıq hələ qarşıdakı onilliklər ərzində uzun müddət davam edəcək, şirkətin istismar etdiyi neft yataqlarındakı perspektivlər, Krallığın şirkətlərinin ölkəmizin qeyri-neft sektorunun inkişafında iştirakı, indi isə işğaldan azad edilmiş ərazilərdə şəhərsalma, abadlıq və bərpa işlərinə, həmçinin bərpa olunan enerji sektoruna cəlb edilməsi Azərbaycan-Böyük Britaniya əlaqələrinin inkişafında yeni imkanlar və perspektivlər açır. Bu əlaqələr iki ölkələr arasındakı əməkdaşlığın daha da genişləndirilməsinə xidmət edəcəkdir.

***Ramiz Göyüşov,***
***YAP Binəqədi rayon təşkilatının sədri***

## "YAŞAT" üç qazini Türkiyəyə müalicəyə göndərib

**Vətən müharibəsində ağır yaralanan qazilər - İsayev Valeh Mehrac oğlu, Həmidov Məhərrəm Əliaşrəf oğlu və Rəsulov Elşad Əlmurad oğlu "YAŞAT" Fondu tərəfindən bu gün səhər saatlarında Türkiyəyə göndəriliblər.**







Fonddan "İki sahil"ə verilən məlumata görə, ölkəmizdəki həkimlərin rəyi nəzərə alınaraq qazilərimizin müvafiq müayinə, müalicə və reabilitasiya prosesi Türkiyədə davam etdiriləcək. "YAŞAT" Fondu qazilərimizin müalicəsini tam yekunlaşana qədər nəzarətdə saxlayacaq. Fond tərəfindən həkim rəyi əsasında ağır yaralı olan qazilərimizin müalicə üçün xaricə davamlı şəkildə göndərilməsi təmin ediləcək.

Eyni zamanda Fond tərəfindən Türkiyə və İsraildən həkimlərin ölkəmizə dəvət olunması istiqamətində müvafiq tədbirlər görülür. Dəvət olunan həkimlər tərəfindən qazilərimizin müayinə, müalicə və əməliyyatının həyata keçirilməsi nəzərdə tutulur. "YAŞAT" Fonduna müraciət prosesini daha da asanlaşdırmaq, mütəmadi hesabatlar təqdim etməklə şəffaflığa nail olmaq məqsədi ilə yashat.gov.az portalı istifadəyə verilib. Fondun hesabatlılığı ilə tanış olmaq üçün keçid: https://yashat.gov.az/report/tableau Həmçinin Fondun 8110 "Çağrı" Mərkəzi fəaliyyət göstərir.

TƏRS BAXIŞ

# Türk ordusu İraqda PKK-nın "canına oxuyur"!

## ABŞ və Qərb dairələrinin regionda xaos yaratmaq missiyaları yenə də puç oldu





**Artıq qardaş Türkiyə mətbuatının yazıdqlarından da məlum olmaqdadır ki, ölkənin Silahlı Qüvvələri İraqda sol marksist silahlı terror təşkilatı kimi tanınan PKK-ya (Kürdüstan Fəhlə Partiyası) qarşı "Qartal caynağı 2" hərbi əməliyyatına başlayıb. Türkiyənin müxtəlif məqsədli hərbi birlikləri sərhəddən 30-35 km aralıda yerləşən İraqın şimalındakı Qara dağlarında irəliləyir.**

Bu arada xatırlatmaq olar ki, Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan hərbi əməliyyatların başlaması ehtimalı barədə danışarkən xəbərdarlıq siqnallarını vermişdi. "Mən dəfələrlə demişəm və bir daha bəyan edirəm ki, Türkiyə Silahlı Qüvvələri günün istənilən vaxtında, gecə və gündüz Sincar rayonunda mövcud olan PKK güclərinin məhv edilməsi üçün əməliyyatlara başlamaq əzmindədir", deyə qardaş ölkənin dövlət başçısı vurğulamışdı.

### Türk kəşfiyyatı PKK-nın aparıcı şəxslərindən olan İbrahim Parımı ələ keçirib və qiymətli məlumatlar əldə edib

Çox yəqin ki, o bu barədə danışarkən, artıq Türkiyə SQ-nin Baş qərargahında "Qartal caynağı 2" antiterror əməliyyat planı hazır vəziyyətdə olub. Sözügedən əməliyyata hazırlıq maksimal cəhətdən qısa vaxtda həyata keçirilib, lakin əməliyyatın əldə etdiyi uğurları müşahidə edərkən, onun mükəmməl şəkildə hazırlanması da diqqətdən yayınmır. Misal üçün, türk kəşfiyyatının İraq ərazisində apardığı uğurlu işi nəticəsində PKK terror təşkilatının aparıcı şəxslərindən biri olan İbrahim Parımın ələ keçirilməsi və onun qiymətli məlumatları verməsi bu faktı kifayət qədər əsk etdirməkdədir.

Və eyni zamanda, kifayət qədər ehtimal etmək mümkündür ki, hərbi əməliyyata hazırlıqlar məhz ötən ilin dekabrında baş vermiş gərginliklərdən sonra başlayıb...

### Bəllidir ki, qeyri-rəsmi olaraq, amerikalı hərbi kontingentləri SDF/YPG/PKK terror qrupları ilə gizli əməkdaşlığa malikdirlər

Həmin vaxt sol marksist YPG/PKK terror qrupu ağır silahlarla İraq Kürdüstanına müdaxilə edərək, pəşmərgələrlə silahlı qarşıdurmaya girişmişdilər. Tendensiya açıq-aşkardır - Suriyada nəzarətlərində saxladıqları mövqelərini möhkəmlənmək və orada mövcud olan amerikalılarla sıx əlaqədə olmaq. Bəllidir ki, qeyri-rəsmi olaraq, amerikalı hərbi kontingentləri SDF/YPG/PKK terror qrupları ilə gizli əməkdaşlığa malikdirlər. Bu baxımdan, PKK silahlıları indi də əsas vəzifə kimi İraqda, daha dəqiq desək İraq Kürdüstanında möhkəmlənməyi qarşılarına məqsəd kimi qoyublar. Halbuki, bu ərazilərdə onların mövcud olmalarına kimsə sevinmir...

Onu da qeyd edək ki, PKK İraqın pəşmərgə cinahını "milli satqınlar" kimi qiymətləndirir. Belə ki, pəşmərgələr Türkiyə ilə əməkdaşlığa üstünlük verirlər və bu məqsədlə sol marksist, habelə ateist Abdullah Öcalan (Bu qaniçən və uşaq qatili olan PKK lideri 1998-ci ildən İmralı adasında həbs yatır) ideologiyasına qarşı çıxırlar. Yeri gəlmişkən, fevralın 15-də Öcalanın türk özəl qüvvətləri və kəşfiyyatı tərəfindən saxlanılmasının üzərindən 22 ili tamam olacaq. Xatırladaq ki, 1998-ci ilin bu tarixində PKK lideri Yunanıstanın Keniyadakı səfirliyini tərk edərək, Nayrobi aeroportuna doğru istiqamət alarkən, türk SQ-i tərəfindən ələ keçirilmişdi.

### İraq Kürdüstanı - pəşmərgələr Türkiyəyə sadiqlik nümayiş etdirirlər

Həmin vaxtdan indiyə qədər isə çox şeylər dəyişib, eləcə də kürdlər üçün də heç nə əvvəlki kimi deyil. Onlar ənənəvi olaraq heç vaxt bir millət kimi birləşməyiblər, buna səbəb isə qəbilələr arasında davam edən barışmaz savaşlar, qarşıdurmalardır. Ona görə də, kürdləri bütövlükdə anti-Türkiyə gücündə görmək doğru deyil. Məhz ötən illər ərzində kürdlərin çoxu Türkiyə ilə sülhə getməyə qərarlaşıblar - özlərinin və övladlarının sağlam və imkanlar açan gələcəyi üçün.

Lakin PKK Öcalanın mühakimə olunmasından hazırkı zamana qədər proqressiv hərəkatçılardan ultramühafizəkarlara dönüşüblər və bu vasitə ilə xalqı keçmişə zorla sürükləyir, Türkiyədə, İranda, İrqda, Suriyada bu yolla getməyən kürdləri isə münaqişə ocaqları yaradaraq öldürür, məhv edir. Ona görə də Ankaranın PKK ilə mübarizəsi, eləcə də "Qartal caynağı" timsalında çoxsaylı antiterror əməliyyatlar keçirməsi həm də Türkiyənin özünün sərhədlərinin strateji və s. təhlükəsizliyinin təminatı kimi də dəyərləndirilməlidir. Təkcə Türkiyənin İraq Kürdüstanında biznes mühiti yaratması və regionun çiçəklənməsi üçün göstərdiyi səyləri də buraya əlavə edərsək, aparılan mübarizənin mühümlüyü bir daha özünü isbatlayır. Söhbət milyardlarla dollarlardan gedir ki, amerikalılar həmin ərazidə "xaos idarəçiliyi" yaratmağa çalışırlar.

Ankara və Tehranda PKK-nı terror təşkilatı kimi tanıyırlar, Vaşinqtonda isə SDF/YPG/PKK üçlüyünün silahlıları Amerikanın İŞİD-lə mübarizəsində etibarlı müttəfiq olaraq qəbul edilir

O da əbəs deyil ki, PKK-ya ən çox dəstək göstərən tərəf ABŞ-ın demokrat partiyasında yer alan ideoloji partnyorlarıdır. Belə ki, PKK ammerikalı demokratlar üçün Türkiyəyə, İrana qarşı işlədilən rahat alət rolunu oynayır. Məhz Ankara və Tehranda PKK-nı terror təşkilatı kimi tanıyırlar, Vaşinqtonda isə SDF/YPG/PKK üçlüyünün silahlıları Amerikanın İŞİD-lə mübarizəsində də etibarlı müttəfiq olaraq qəbul edilir. Amerikalıların nəzərincə onlara toxunmaq olmaz və tooxunanlar dərhal "beynəlxalq terrorçuluğa qarşı mübarizəni zəifləmtəkdə" ittiham edilirlər.

O da əbəs deyil ki, Türkiyənin "Qartal caynağı 2" antiterror əməliyyatı dərhal ABŞ-ın nəzarətindəki Qərb dairələrində "neoosmançılıq", "türk ekspansiyası", həm də Böyük Turançılıq kimi qiymətləndirilir.

Lakin bu cəhdlərin əbəs olduğu indidən məlumdur. Belə ki, Türkiyə SQ-ri İraqın ərazisində tam legitimdirlər və özəlliklə PKK-ya qarşı amansız mübarizə aparan İraq Kürdüstanının rəsmi dəvəti ilə oradadırlar. Məhz bu faktor qərblilərin "kürd xalqının xoşbəxt gələcəyi" adı altında reallaşdırılmağa səy göstərilən xaosunun, geosiyasi oyunlarının ayaq açmasına imkan vermir. Türkiyə ordusu isə sözün əsl mənasında "Qartal caynağı 2" antiterror hərbi əməliyyatı ilə PKK-nın "canına oxumaqda" davam edir.

*Rövşən RƏSULOV*

# Erməni nazir: "Ermənistanın iqtisadi tənəzzülü 8%-ə çata bilər"



Ermənistanda iqtisadi azalma 2020-ci ilin sonunadək 8% -ə çata bilər. SİA xəbər verir ki, bunu Ermənistan maliyyə naziri Atom Cancuqazyan cümə axşamı hökumətin iclasında deyib. "Bu gündən etibarən, düzəlişlər nəticəsində 2020-ci il üçün iqtisadi tənəzzül proqnozları 8 % olaraq qiymətləndirilir", deyə Jancuqazyan bildirib.

Eyni zamanda nazir, 2020-ci ilin əvvəllərində iqtisadi tənəzzülün iki rəqəmli nisbətlərə çata biləcəyi proqnozlaşdırıldığını da qeyd edib. Milli Statistika Komitəsinin məlumatına görə, Ermənistandakı iqtisadi aktivliyin göstəricisi, ilkin məlumatlara əsasən, 2020-ci ilin yanvar-dekabr aylarında 2019-cu ilin eyni dövrünə nisbətən 7,5% azalma qeydə alınıb. Dünya Bankına görə də, Ermənistan iqtisadiyyatı 2020-ci ildə 8 % azalacağı proqnozlaşdırılırdı. BVF isə 2020-ci ilin sonunadək Ermənistanın ÜDM-də 7,25% azalma proqnozlaşdırıb.

Əlbəttə ki, yalnız işğalçılıq siyasətini özünə strategiya olaraq qəbul edən Ermənistan kimi bir ölkə üçün başqa hansısa müsbət proqnoz verilə bilməzdi. Statistik göstəricilər də təsdiq edir ki, işğalçı ölkədə yalnız iqtisadi tənəzzül müşahidə olunub və əslində, gözlənilən olub. Ümumiyyətlə, təkcə iqtisadi deyil, bütün sahələrdə Ermənistanın tənəzzülü qaçılmazdır və bunu maliyyə naziri Cancuqazyanın timsalında ermənilər özləri də etiraf etmək məcburiyyətində qalıblar.

*İnam Hacıyev*

# 205 nəfər COVID-19-dan sağalıb, 140 nəfər yoluxub



Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 140 yeni yoluxma faktı qeydə alınıb, 205 nəfər müalicə olunaraq sağalıb. Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 3 nəfər vəfat edib. İndiyədək ölkədə ümumilikdə 231 649 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 226 119 nəfər müalicə olunaraq sağalıb, 3 170 nəfər vəfat edib, aktiv xəstə sayı 2 360 nəfərdir. Son sutka ərzində yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 7 315, ötən müddət ərzində isə ümumilikdə 2 478 223 test aparılıb.

# Sarkisyan tərəfdarları ilə çadırda görüşüb



Ermənistanın üçüncü prezidenti Serj Sarkisyan "Vətənin xilası hərəkatı" tərəfdarlarının Respublika meydanında qurduğu çadıra baş çəkib. Azvision xəbər verir ki, Sarkisyan çadırda olan Respublika partiyasının üzvləri ilə görüşüb. Sabiq prezident bir saatdan artıq görüş keçirib.

Xatırladaq ki, "Vətənin xilası hərəkatı"nın təşəbbüsü ilə keçən ildən bəri Respublika meydanında çadır qurulub. Bu hərəkatda Ermənistanın 20-dək siyasi partiyası birləşib və onlar baş nazir Nikol Paşinyanın istefasını tələb edirlər.

# Uşaqlar niyə COVID-19-a qarşı peyvənd olunmur?

"Koronavirusun yeni ştammının yayılması hələ davam edəcək. Hələ ki, mutasiyalarda virusun yayılma sürətinin artması müşahidə olunub. Onların uşaqlar arasında daha təhlükəli olması məsələsi müəyyən olunmayıb". Bunu Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib.

O qeyd edib ki, uşaqlar arasında vaksinasiya aparılmır, çünki onlar risk qrupuna aid deyil: "Bundan sonra da gigiyenik qaydalara ciddi əməl olunmalıdır. Uşaqların spirtdən çox istifadəsinə gəlincə, onların dərisi daha incədir. Spirtdən lazımi qədər istifadə olunmalıdır".

# YAP Biləsuvar rayon təşkilatının növbəti hesabat yığıncağı keçirilib

**YAP Biləsuvar rayon təşkilatının 2020-ci ildəki fəaliyyətinin yekunlarına həsr olunmuş videokonfrans formatında hesabat yığıncağı keçirilib. YAP Biləsuvar rayon təşkilatı Şura üzvləri və ərazi ilk partiya təşkilat sədrləri, aktiv partiya fəallarının iştirak etdiyi tədbiri giriş sözü ilə açan Yeni Azərbaycan Partiyası Biləsuvar rayon təşkilatının sədr əvəzi Aqşin Bağırov tədbir iştirakçılarını salamlayıb və hesabat yığıncağının növbəti illərdə böyük uğurla əldə edəcəyinə əminliyini bildirib.**

Hesabat yığıncağında YAP Biləsuvar rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əjdər Niftiyev hesabat məruzəsi ilə çıxış edərək, ötən ilin ən önəmli hadisəsi kimi Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında bir yumruq kimi birləşərək torpaqlarımızın işğaldan azad edilməsindən, Vətən müharibəsindəki uğurlarımızdan, COVİD-19 pandemiyasına qarşı mübarizədən və bu dövrdə rayon təşkilatı tərəfindən həyata keçirilən tədbirlərdən ətraflı bəhs edib.



Ə.Niftiyev YAP Biləsuvar rayon təşkilatının 2020-ci il ərzində Yeni Azərbaycan Partiyasının Proqram və Nizamnaməsi əsasında fəaliyyət göstərərək işini rayon təşkilatının iş planına, YAP Mərkəzi Aparatının təlimat və göstərişlərinə uyğun qurduğunu bildirib və keçirilməsi nəzərdə tutulan tədbirlər barədə danışıb.

Daha sonra Ə.Niftiyev qeyd edib ki, ərazilərdə gənclərlə və qadınlarla aparılan iş YAP Biləsuvar rayon təşkilatı Aparatının, Gənclər Birliyi və Qadınlar Şurasının daim diqqət mərkəzində saxlanılıb. İyun ayında rayon təşkilatının 2020-ci ilin birinci yarımillik, dekabr ayında isə illik statistik hesabatları tərtib edilib, statistik uçot dəqiqləşdirilib. Statistik hesabata görə, hazırda rayon təşkilatı 71 ərazi ilk partiya təşkilatı üzrə 5493 nəfər partiya üzvünü öz ətrafında birləşdirir ki, onların 1644 nəfəri qadınlar,1664 nəfəri isə gənclərdir.

Daha sonra hesabat məruzəsi ətrafında müzakirələr aparılıb. Çıxış edənlərdən YAP Mərkəzi Aparatın Mil Muğan Zonası üzrə kurator Həsən Daşdəmirov, Biləsuvar rayon icra hakimiyyəti başçısının müavini Ləman Yüzbaşova, YAP Biləsuvar rayon təşkilatı Nəzarət Təftiş Qrupunun sədri Kazım Mənsimov, 33 saylı şəhər ərazi ilk partiya təşkilatının sədri Xalid Əliyev görülən işlərdən danışıb, təşkilatın üzvlərinin rayondakı ictimai-siyasi proseslərdə öz fəallıqları ilə fərqləndiklərini qeyd edib və 2020-ci ildə rayon təşkilatının fəaliyyətinin qənaətbəxş qəbul edilməsini məqsədəuyğun hesab ediblər.

Tədbirdə YAP Biləsuvar rayon təşkilatının 2020-ci ildəki fəaliyyəti qənaətbəxş hesab edilib və 2021-ci il üçün Fəaliyyət Planı qəbul olunub.

***Rəfiqə HÜSEYNOVA***

# YAP Ucar rayon təşkilatı "Şəhid ailələrinə qayğı" aksiyasını davam etdirir

**Yeni Azərbaycan Partiyası Ucar rayon təşkilatının üzvləri "Şəhid ailələrinə qayğı" aksiyası çərçivəsində rayonunun Vətən müharibəsindəki Şəhid ailə üzvlərini daima xüsusi diqqət mərkəzində saxlayır, şəhidlərin məzarlarını ziyarət edir, ailələrini evlərində ziyarət edir, onlara yüksək ehtiramlarını və diqqət, qayğılarını ifadə edirlər.**



YAP Ucar rayon təşkilatının sədri Şəhla Abdullayeva və rayon təşkilatının üzvləri Vətənimizin ərazi bütövlüyü uğrunda döyüşlərdə həlak olmuş rayonun Qazıqumlaq kəndinin şəhidləri itkin düşmüş zabit Qadir Məmmədov Aslan oğlunun 28-ci ildönümü münasibətilə ailəsini, 10 fevral 1994-cü il tarixdə Kəlbəcər rayonunda itkin düşmüş Qalib Qurbanov Qüdrət oğlunun Ucar rayonun Küçəkənd kəndində yaşayan anası Rəfiqə Qurbanovanı ziyarət etmiş, şəhidin ruhuna dualar oxunmuşdur.



Ramil Əzizov Davud oğlu və Namiq Qarayev Qarakişi oğlu, Məlikballı kəndinin şəhidi Orxan İsmayılov Zöhrab oğlu və Arif Xəlilov Həmdiyə oğlu, Boyat kəndinin şəhidi Fərhad Salmanov Məmməd oğlunun məzarlarını ziyarət edərək, Allahdan rəhmət diləyərək, məzarlarını tər çiçəklər düzüb, ruhlarına dualar ediblər.

Həmçinin, 8 fevral 1993-cü ildə Ağdərə rayonunun Mehmanə kəndində rət etmiş, şəhidin ruhuna dualar oxunmuşdur.

Ziyarət zamanı vurğulanıb ki, Azərbaycan xalqı Vətən torpaqları uğrunda mətanətlə döyüşən, bu yolda Şəhadət zirvəsinə ucalan və tarixi, möhtəşəm Qarabağ Zəfərinə imza atan Ramil, Namiq, Orxan, Arif, Fərhad, Qadir, Qalib kimi cəsur, fədakar övladlarının əziz xatirəsini daim uca tutacaqdır. Bildirilib ki, Azərbaycan Respublikasının müstəqilliyi və ərazi bütövlüyü uğrunda canını fəda etmiş şəhidlərimizin ailələrinə, sağlamlığını itirmiş qazilərimizə xüsusi diqqət və qayğı göstərilir. Dövlət başçısının tapşırıq və tövsiyyələrinə uyğun olaraq Ucarda da şəhid və qazi ailələrinin mövcud problemlərinin aradan qaldırılması üçün mütəmadi olaraq tədbirlər həyata keçirilir. Diqqətə çatdırılıb ki, Vətən müharibəsi Şəhidlərinin ailə üzvləri, qazilər, Müzəffər Ordunun qalib əsgərləri daima Yeni Azərbaycan Partiyasının xüsusi diqqət və qayğısı mərkəzindədir.

Şəhid ailələrinin üzvləri və qazilərimiz onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyev cənablarına və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürlərini bildiriblər.

Həmçinin, YAP Ucar rayon təşkilatının üzvləri Şəhid ailələrinin üzvlərinin gündəlik qayğıları ilə maraqlanıblar və Azərbaycanımıza yüksək fəxarət, şərəf gətirən bu ailələri daim xüsusi diqqət mərkəzində saxladıqlarını bildiriblər. Bütün Şəhidlərimizə Allahdan rəhmət diləyirik. Ruhunuz şad olsun, Vətənimizin qəhrəman oğulları!

***RƏFİQƏ HÜSEYNOVA***

# Qanı ilə torpağı suvaran Təbriz Xəlilbəyli

*Səni arzum üçün, amalım üçün,*
*Səni döyüş üçün yaratmış könül.*

Azərbaycan, sənin işıqlı gələcəyin, istiqlalın, azadlıq günəşinin doğması üçün çox qanlar axıdıldı torpağına. Canından, qanından keçdi neçə-neçə igid oğlun. O oğulların ki, sənin torpağından, onun şirəsindən, qanla yoğrulmuş hər qarışından güc almışdı. Od püskürən oğulların sənin qoynunda milli qəhrəman oldu, qanı ilə torpağı suvararaq Şəhid oldu. Onlar haqqın səsinə can fəda etdilər. Azərbaycan torpağında üç rəngli bayrağımız dalğalansın deyə. O oğullar ki, bu torpağın şah budaqlarıdır. Onlar vətənin çətin günündə silaha sarılıb gecəli-gündüzlü Odlar diyarının müdafiəsində durdular. Vətən daşı onların isti yuvsına çevrildi. 1988-ci ildə ölkəmizdə başlanan ictimai-siyasi hadisələrin kəskinləşməsi çox oğulları erməni təcavüzkarlarından torpağı qorumaq üçün silaha sarılmağa, bu torpağın keşiyində durmağa səslədi. Babəklər, Koroğlular, Mehdilər, Mübarizlər, Rafiqlər yetişdirən bu torpağın sayseçmə oğulları kifayət qədərdir. Onların hər biri gələcək nəslə bir örnək, nümunə olub. Bu oğullar sırasında bu gün ad günü olan Azərbaycanın Milli Qəhrəmanı Xəlilbəyli Təbriz Xəlil Rza oğlunun da ismi var. Yaşasaydı bu gün 57 yaşını qeyd edəcəkdir.

Təbriz çoxları kimi Birinci Qarabağ savaşında döyüşlərdə iştirak edir. Özü də qəhrəmancasına. 12 fevral 1964-i ildə dünyaya göz açan Təbriz elə bir ailədə tərbiyə almışdı ki, o, yalnız döyüş meydanında vətənin keşiyində durmalı idi. İstiqlal şairi, Azərbaycanın xalq şairi Xəlil Rza Ulutürkün ailəsində anadan olan, onun ruhundan qidalanan, ziyalı bir atanın tərbiysini görən oğulun başqa seçimi ola bilməzdi.

*Arzular, könlümdə çeşmə-çeşmədir,*
*Arzular qoynunda boy atmış könül.*
*Səni arzum üçün, amalım üçün,*
*Səni döyüş üçün yaratmış könül.*

- deyən Xəlil Rza Ulutürk misralarında qəhrəman oğulun sakit bir ömür sürməsini yox, od-alov içində vuruşmasını diləyirdi.

28 il ömür yaşadı. Amma başucalığı gətirən bir ömür səhifəsini yazdı. Gələcəyini xəyalında canlandırmışdı, arzuları tükənməz idi. Həyatın çağrışı isə başqa idi. 1981-ci ildə Bakı şəhəri M.Müşfiq adına 18 saylı orta məktəbi bitirən Təbriz 1982-ci ildə Azərbaycan Dövlət İncəsənət Universitetinə daxil olur. Təhsilini davam etdirərək, həm də C.Cabbarlı adına "Azərbaycan film" kinostudiyasında işıqçı işləyir. Vətən darda olanda Xəlilbəyli Təbriz 1991-ci ilin sonunda könüllü olaraq cəbhəyə yola düşür.

***Çağırır Zəngəzur:*** *- Zərbəni bərk vur !*
*Səngərdə möhkəm dur !.. Çağırır Göyçə.*
*Laçınım, Şuşa adlı sonsuz cahanım -*




*Natəmiz əllərdə qalan gülqönçə.*

Belə bir misraların müəllifi olan Xəlil Rzanın oğlu şəhərdə rahat yaşaya bilməzdi. Xromord və Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə o, qəhrəmanlıq nümunəsi göstərir. Qısa, lakin şərəfli, şücaətli döyüş yolu keçir və yoldaşları arasında böyük nüfuz və hörmət qazanır. Onu cəsur bir döyüşçü kimi tanıyırlar. Təbriz Xəlilbəyli neçə-neçə yaralı əsgəri ataş altından çıxarmış, düşmənin xeyli canlı qüvvəsini məhv etmişdi. Döyüş şücaətlərinə görə o, DİN-nin "Boz qurd" mükafatına layiq görülmüşdü.

1992-ci il 31 yanvar Təbriz Xəlilbəylinin son döyüşü olur. O, Şuşanın mühasirədən çıxarılması üçün təşkil edilən Daşaltı əməliyyatı zamanı şəhid olur.

*Xəlil Rzanın misralarına hopdu*
*oğul itkisi, şəhid vüqarı:*
*Aç başından qara şalı, can*
*Firəngiz, sən ağlama!*
*O məqbərə yerdi-göydü... baş*
*daşını qucaqlama.*
*Mərmərində dövrə dönür*
*yağış göydən dama-dama.*
*Üstündəki ehtişama matdı*
*Təbriz Xəlilbəyli.*

Həyatda ən böyük zirvə şəhidlikdir. Bu zirvəyə ucalan Təbriz xalqın yaddaşında əbədi heykəlini ucaldıb. Bir ailənin yox, böyük bir xalqın övladıdır. Təbriz Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Bakı şəhərində və Salyan rayonunda küçələrdən biri onun adını daşıyır. Xüsusi məqsədlər üçün istifadə olunan bir gəmi onun şərəfinə adlandırılmışdır. Yaşadığı evin qarşısına xatirə lövhəsi vurulub.

Bu gün Azərbaycanın işğal altında olan torpaqları azaddır. Azad nəfəs alır torpaqlarımız. Ali Baş Komandan, Azərbaycan Prezidenti İlham Əliyev ətrafında sıx birləşən vətən övladları qisası qiyamətə qoymadılar. Azərbaycan bayrağını işğal altında olan vətən torpağında dalğalandırdılar. Təbrizlərin davamçıları onların intiqamını aldılar. Bu gün torpaq altında uyuyan hər bir şəhidin ruhu müqəddəs torpaqlarımızda rahat, azad nəfəs alır. Torpağımız azaddır.

Allah rəhmət eləsin!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Zəfərli il və qarşıda duran vəzifələr

## *Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatında 2020-ci ilin yekunu və 2021-ci ildə qarşıda duran məsələlər müzakirə edilib*

**Dünən 2020-ci ilin yekunu və 2021-ci ildə qarşıda duran məsələlər ilə əlaqədar Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının Şura üzvləri, ərazi ilk partiya təşkilat sədrləri, Gənclər Birliyi və Qadınlar Şurasının birgə iştirakı ilə videoformatda hesabat yığıncağı keçirilib. Hesabat yığıncağında millət vəkilləri - Məşhur Məmmədov, Anar İsgəndərov, YAP Siyasi Şurasının üzvü, rayon icra hakimiyyətinin başçısı Şahin Məmmədov və başqaları çıxış ediblər.**





Onlayn tədbiri giriş sözü ilə YAP Masallı rayon təşkilatının sədri Seyfəddin Əliyev açmış, Vətən müharibəsində şəhid olanların əziz xatirəsi 1 dəqiqəlik sükutla yad edilmişdir.

Seyfəddin Əliyev hesabat məruzəsində qeyd etmişdir ki, “Müstəqil Azərbaycan Respublikasının banisi, Ümummilli Lider Heydər Əliyev tərəfindən müəyyənləşdirilən siyasi kursun ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən qətiyyət və sədaqətlə davam etdirilməsi nəticəsində ölkəmiz ildən-ilə qüdrətlənir və inkişaf edir. Bu tərəqqini hər bir Azərbaycan vətəndaşı rifah halının yüksəlməsi, özünün sosial vəziyyətinin yaxşılaşması şəklində görür, yaşayır və hiss edir. Eyni zamanda bütün regionlarımızda geniş miqyaslı abadlıq və quruculuq işlərinin aparılması, kəndlərimizin, şəhərlərimizin yenidən qurulması ölkəmizin sürətli inkişafına əyani sübutdur”.

2020-ci il Möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz üçün çox əhəmiyyətli və xoş hadisələrlə yadda qalan il oldu. Ölkəmizin bütün sahələrdə inkişafı və dünya dövlətləri arasında mühüm yer tutması istiqamətində bir çox yeniliklərə imza atıldığını qeyd edən təşkilat sədri 2020-ci il sentyabrın 27-də Ermənistanın Azərbaycana qarşı hərbi təxribatı nəticəsində başlayan müharibədə xalqımız Prezident İlham Əliyevin Müzəffər Ali Baş Komandan kimi hərbi sərkərdəlik keyfiyyətlərinin, prinsipial və qətiyyətli mövqeyinin, ən ekstremal şəraitdə belə uğurlu diplomatiya yürütdüyünün bir daha şahidi olunduğunu qeyd etdi. “44 gün davam edən Vətən müharibəsində Azərbaycanın işğal olunmuş əraziləri cənab İlham Əliyevin Ali Baş Komandanlığı ilə erməni qəsbkarlarından azad edildi. Xalqımızın tarixinin parlaq və unudulmaz səhifələrindən birini təşkil edən bu şanlı qələbənin əsasında həm Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, həm də ondan irəli gələrək Azərbaycanın sosial-iqtisadi, siyasi, mədəni, hərbi sahələrdə uğurları, xarici siyasətdə nailiyyətləri dayanır”.

Seyfəddin Əliyev Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının əvvəlki illərdə olduğu kimi 2020-ci il ərzində də işini Azərbaycan Respublikasının qanunvericiliyinin, partiyanın Nizamnaməsi və Proqram müddəalarının, Yeni Azərbaycan Partiyasının Qurultaylarının qərarlarının, İcra Katibliyinin tapşırıq və tövsiyyələrinin rəhbər tutulması əsasında həyata keçirildiyini bildirib. Qeyd olunub ki, rayon təşkilatının 2020-ci ildəki fəaliyyətinin əsas istiqamətlərindən biri də cənab Prezident, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyevin gördüyü işlərin təbliğindən və cəmiyyətə çatdırılmasından ibarət olub.

Qeyd edilib ki, dünyanı cənginə alan yeni növ koronavirus (COVID-19) infeksiyası ilə əlaqədar olaraq rayon təşkilatı bir sıra tədbirlər həyata keçirib: “Belə ki, YAP İcra Katibliyinin tapşırığına əsasən, “Sağlamlığımız milli həmrəyliyimizdir” aksiyası çərçivəsində rayon təşkilatı tərəfindən tənha, köməyə ehtiyacı olan yaşlı, ahıl insanların evlərinə baş çəkilib, onlara koronavirusdan qorunmaq, sağlamlıqlarını müdafiə etmək məqsədilə gigiyenik vasitələr çatdırılıb, xəstəlikdən qorunma üsulları izah edilib. Hazırda koronavirusa qarşı mübarizə tədbirləri davam etdirilir”.

Hesabat dövründə rayon təşkilatı mükəmməl şəkildə təşkilatlanmış, partiya üzvlərinin fəal iştirakı təmin edilmiş, tədbirlər, layihələr həyata keçirilmişdir deyən Seyfəddin Əliyev: “Hesabat dövründə partiya sıralarına üzv olmaq üçün müraciət edən insanların sayı 217 nəfər olmuşdur ki, bu da üzvlərin sayının 11194 nəfərə çatması deməkdir. Rayon təşkilatının qeydiyyatında olan 11194 nəfər partiya üzvündən 31.02 %-ni yəni 3472 nəfərini qadınlar, 30%-ni yəni 3353 nəfərini gənclər təşkil edir. Üzvlərin 30.6 %-i yəni 3425 nəfəri ali təhsilli, 19.02 %-ni yəni 2129 nəfəri orta ixtisas təhsillidir. Fəaliyyət sahələrinə görə elm, mədəniyyət və incəsənətdə 313 nəfər, idarəetmə orqanlarında 149 nəfər, səhiyyədə 592 nəfər, təhsildə 2116 nəfər partiya üzvləri çalışır. Eləcədə üzvlərin 763 nəfəri təqaüdçü, 229 nəfəri isə tələbədir.2020-ci il ərzində partiya sıralarına 217 nəfər daxil olmuş və onlardan 90 nəfərini qadınlar, 158 nəfərini gənclər təşkil etmişdir”.

Tədbirdə Yeni Azərbaycan Partiyası Masallı rayon təşkilatının Qadınlar Şurasının 2020-ci ildə gördüyü işlər də dinlənilib.

Konfransda çıxış edən Milli Məclisin deputatı Anar İsgəndərov qeyd edib ki, ötən il ölkəmiz və xalqımız üçün olduqca yaddaqalan bir il olub: “İstər koronavirus pandemiyası ilə mübarizədə, istərsə də Vətən müharibəsində böyük uğurlara imza atmışıq. Prezident İlham Əliyevin rəhbərliyi ilə məqsədyönlü islahatlar həyata keçirilib”.

Sonra Milli Məclisin deputatı Məşhur Məmmədov çıxış edib. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm qələbəyə toxunan deputat qeyd edib ki, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun qazandığı qalibiyyət xalqımıza sonsuz qürur hissi bəxş edib.

Konfransda Yeni Azərbaycan Partiyasının Siyasi Şurasının üzvü, Masallı rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədov çıxış edərək bildirmişdir: “Yeni Azərbaycan Partiyası Azərbaycan tarixinin son dərəcə ağır və keşməkeşli günlərində, ölkənin ciddi sınaqlara məruz qaldığı bir dövrdə Azərbaycan ziyalılarının təşəbbüsü və fəal iştirakı ilə yaranmışdır. Azərbaycanın ən yeni tarixinə “91-lər”in müraciəti kimi daxil olmuş həmin sənəd əslində, bütün xalqın arzu və istəklərinin ifadəsi idi. Azərbaycanın görkəmli ziyalıları, tanınmış insanları və nüfuzlu şəxsiyyətlərinin imzaladıqları bu müraciətdə Heydər Əliyevdən yeni yaradılacaq siyasi partiyaya rəhbərlik etmək xahiş olunurdu. Ulu Öndər ziyalıların müraciətini qəbul etsə də, Onun Bakıya gəlməsinə o zamankı səriştəsiz şəxslərin rəhbərlik etdiyi hakimiyyətin manelər yaratması ucbatından, partiyanın yaradılmasını istəyən insanların bir hissəsi Naxçıvana gedərək, partiyanın təsis konfransını orada keçirməyə nail oldular. Yenə də xalqın Heydər Əliyevə olan inanmını bəzi qüvvələr sarsıda bilmədi. Naxçıvanda yaradılan YAP-ın təsis konfransında Ümummilli Lider Heydər Əliyev yekdilliklə yeni yaradılan partiyanın Sədri seçildi. Qısa zaman kəsiyində YAP siyasi hakimiyyətə gəldi. Bunun əsas qayəsi inam və etibar idi. YAP öz yaranışı ilə Azərbaycanın ictimai-siyasi fikir, siyasi fəaliyyət və mübarizələr tarixinə yeni bir keyfiyyət halı gətirdi”.

Şahin Məmmədov Masallı rayonunda aparılan abadlıq-quruculuq işlərindən, siyasi həmfikirlərinin rayonun inkişafındakı rolundan bəhs etmiş və öz tövsiyyələrini vermişdir.

Çıxışlardan sonra YAP Masallı rayon təşkilatının 2020-ci ildəki fəaliyyəti qənaətbəxş hesab olundu və partiya həyatında fəal iştirakına görə bir qrup YAP üzvü rayon təşkilatının Fəxri Fərmanı və qiymətli hədiyyələri ilə təltif edildilər. Qeyd edək ki, tədbirdə YAP Mərkəzi Aparatının məsul işçisi Ramil Mirzəyev də iştirak edib.

# YAP İsmayıllı rayon təşkilatı şəhid ailələri ilə görüşlərini davam etdirir

**Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatı şəhid ailələri və qazilərlə görüşlərini davam etdirir. Görüşdən öncə rayonumuzda yerləşən Şəhidlər Xiyabanında Vətən torpaqlarının müdafiəsi zamanı canlarından keçmiş şəhidlərimizin xatirəsi yad edilmişdir. Daha sonra rayon təşkilatının sədri Sevil Əhmədova və təşkilatın nümayəndələri Vətən müharibəsi zamanı qəhrəmancasına şəhidlik zirvəsinə ucalan YAP İsmayıllı rayon təşkilatının Şura üzvü, Baş leytenant Əhmədzadə Famil Ağaəhməd oğlunun və gizir Musayev Ramil Aydın oğlunun ailələrini ziyarət etmişlər.**





Respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların ailə üzvlərinə başsağlığı verən Sevil Əhmədova xalqımızın onlar kimi igidlərlə qürur duyduğunu vurğulayaraq son nəfəsinə qədər əzmlə vuruşan və şəhid olan qəhrəmanlarımıza Allahdan rəhmət diləmişdir.

Görüş zamanı şəhidlərimizin Vətən qarşısındakı böyük xidmətlərindən bəhs olunub, ailəsinə qəhrəman oğul böyütdüklərinə görə təşəkkür edilib, onların xatirələrinin dövlətimiz və xalqımız tərəfindən hər zaman uca tutulduğu bildirilib.

Qeyd edək ki, Famil Əhmədzadə 1975-ci ilin sentyabrın 23-də Bakı şəhərində anadan olmuşdur. 2005-ci ildən Yeni Azərbaycan Partiyası İsmayıllı rayon təşkilatının Şura üzvüdür. Rayonun ictimai-siyasi həyatında fəal iştirak edib. 30 sentyabr 2020-ci il tarixində könüllü olaraq Vətəni mənfur düşməndən xilas etmək üçün cəbhəyə yollanmışdır. Baş leytenant Famil Əhmədzadə cəbhə yoldaşlarının döyüş ruhunu artıraraq onları qələbəyə aparırdı. 14 oktyabr Talış kəndi və Suqovuşan istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində və işğaldan azad edilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən “Vətən Uğrunda” və “Döyüşdə fərqlənməyə görə “ medalları ilə təltif edilmişdir.

Gizir Ramil Musayev, 1991-ci ildə Ismayıllı şəhərində anadan olub. XTQ giziri Ramil Musayev 2016-cı il Aprel döyüşlərinin iştirakçısı olmuş , iştirak etdiyi döyüşlərdə xeyli sayda düşməni məhv etmişdir. 3 oktyabr tarixində Vətən müharibəsinin Füzuli-Cəbrayıl cəbhəsində gedən gərgin döyüşlərdə qəhrəmancasına vuruşaraq şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsində və işğaldan azad edilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamına əsasən Ramil Musayev ölümündən sonra “Qarabağ” ordeni, “Vətən Uğrunda”, “Cəbrayılın azad olunmasına görə” ,”Füzulinin azad olunmasına görə” medalları ilə təltif edilib.

Allah Şəhidlərimizə rəhmət eləsin!

***Zümrüd***

# Müxalifət liderlərinin siyasətdə qalmaq imkanları məhdudlaşır

## *Növbəti dalğa "Milli Şura"nı, AXCP və Müsavatı tarixin arxivinə atacaq*

**Azərbaycanın sosial-iqtisadi inkişaf modeli dünyanın əksər aparıcı dövlətləri və beynəlxalq maliyyə institutları tərəfindən yüksək qiymətləndirilir. Təəssüflə qeyd etmək olar ki, müxalifətçilik proseslərindən kənarda qalmaqla parçalanıb, daha da radikallaşan AXCP, Müsavat kimi partiyaların funksionerləri ölkəmizin uğurlarını həzm edə bilmirlər. Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı kimi əlləri daim xarici maraqlı dairələrin cibində olan daşlaşmış məxluqlar nəzarətsiz poliqon hesab olunan sosial şəbəkələrdə qeyri-ciddi, əsassız məlumatlar yayır, videolar paylaşırlar.**



Xüsusilə də, Qarabağda əldə olunan 44 günlük parlaq qələbədən sonra, bu kateqoriyanın təmsilçiləri 10 noyabr razılaşması ilə bağlı ictimai rəyi çaşdırmağa xidmət edən dezinformasiya xarakterli açıqlamalarla çıxış edirlər. Bir növ, erməni mətbəxtində hazırlanan təamlara uyğun ağız dadı nümayiş etdirirlər. Gah Rusiaya sülhməramlıların Qarabağa yerlə.məsinin "işğal" faktı olduğunu bildirir, gah da azərbaycanlıların Xankəndinə, Xocalıya, Xocavəndə köçürülmələrinin mümkün olmayacağı barədə, absurd iddialar ortaya qoyurlar. Yəni, Xankəndidəki terrorçular Araik Arutunyan, Vitali Balasanyan kimi çıxışlar edirlər. Belə baxanda, elə təəssürat yaranır ki, sanki Araik Arutunyan, Vitali Balasanyan kimi terrorçular üfunət iyi verən ağızlarından nə zəhərləri tökürlərsə, onları izləyən Azərbaycanın dağıdıcı müxalifət liderləri də bir-bir onları dənləyirlər.

### Tərəflər eyni siyasi maraqları bölüşürlər

Xatırladaq ki, terrorçubaşı A.Arutunyan bir qədər əvvəl özündən uydurmuşdu ki, onlar heç zaman Xankəndidə Azərbaycan bayrağının dalğalanmasına imkan verməyəcəklər. Digər separatçı-terrorçu V.Balasanyan da sərsəmləmişdir ki, azərbaycanlıların heç bir halda Xankəndinə gəlib, yaşamalarına imkan verməyəcəklər. Söz yox ki, bu terrorçulardan başqa nəsə yaxşı fikir gözləməyə dəyməz. Çünki bunlar beynəlxalq səviyyəli terrorçudurlar və Xocalı soyqırımının birbaşa təşkilatçılarıdırlar. Təəccüb doğuran məqam ondan ibarətdir ki, ən azı şəxsiyyət vəsiqələrində azərbaycanlı milləti sözü yazılmış Azərbaycanın dağıdıcı müxalifət liderləri nədən eyni ilə Xankəndidəki terrorçular kimi düşünür və sosial şəbəkələrdə statuslar paylaşırlar? Şübhələr və ehtimallar uzaqlara gedib çıxır və son qənaət ondan ibarət olur ki, Xankəndidəki terrorçularla Bakıdakı müxalif başbilənlər eyni mərkəzdən idarə olunurlar.

Bu, faktdır ki, Azərbaycanın dağıdıcı müxalifəti qərəzli dairələrin ölkəmizin əleyhinə istifadə olunan alətə çevrilib. Bu, əlbəttə ki, nəzəri fikir deyil, təcrübədə özünün mənfi əksini tapmış reallıqdır. Məhz bu kontekstdə dağıdıcı müxalifət dövlətçilik ideyalarına xidmət etmək əvəzinə, Azərbaycanın gələcəyini düşünməyən "ələbaxan oyuncaq müxalifət" kimi tanınır. Bəzən belə sual yaranır ki, Azərbaycan müxalifəti və xaricdəki "söyüş müxalifəti" heç vəchlə, terrorçubaşlarla eyni ssenarinin aktyorları ola bilməzlər, sadəcə, bilməzlikdən milli maraqlara zidd açıqlamalar verirlər. Və bu açıqlamalarda əksər hallarda terrorçubaşların mövqeləri ilə üst-üstə düşür. Əvvəla, onu qeyd etmək olar ki, Azərbaycan müxalifətinin öndə gedən partiya sədrləri siyasətdə ilk addımlarını atmırlar, nə danışdıqlarının fərqindədirlər. İkincisi isə, onların yaşları və başları məyusluq yaradan fikirlərin səslənməsinə imkan verə bilməz.

### Qarabağda hərbi və diplomatik qələbə müxalifət başbilənlərinin kürkünə birə salıb

Bütün bu kimi nəticə, o qənaəti yaradır ki, Qarabağda hərbi və diplomatik qələbə müxalifət baş bilənlərinin kürkünə birə salıb. Şüurlu şəkildə anlamağa başlayırlar ki, siyasətdə qalmaq imkanları artıq daralır. Bu baxımdan, əvvəlki yazılarımızda qeyd etdiyimiz "müxalifət öz maraqları xatirinə şeytanla da əməkdaşlıq etməkdən çəkinməz" yanaşmamız bu gün öz təsdiqini tapmaqdadır. Bu gün AXCP, Müsavat və "Milli Şura" təmsilçiləri başa düşürlər ki, onların siyasətdə qalmaq imkanları məhdudlaşır. Növbəti zəif dalğa onların siyasət arxivinə atılmaları ilə yekunlaşacaq. Ona görə də, amplualarına uyğun olaraq şər və böhtan kampaniyasından geninə- boluna bəhrələnməyə çalışırlar. Amma el məsəlidir, "filankəs qaş düzəltdiyi yerdə, vurub göz çıxartdı". Müxalifət başbilənləri də, ictimai rəydə qismən də olsa, müsbətə doğru imic qazanmaq ümidi ilə, ənənəvi metodlarını işə salsalar da, vəziyyətlərini daha da ağırlaşdırmış olacaqlar. Çünki batan gəmini xilas etmək mümkün olmadığı kimi, rüsvayçı durumda olan müxalifət partiya sədrlərini də, uçurumun kənarından sakit məkana çəkmək mümkün deyil.

***İ.ƏLİYEV***

## Doğrudanmı, hər şeyə görə günahkar Paşinyandır?

**Dünənədək Nikolu az qala qolları üstündə gəzdirən Ermənistanın bir qrup ictimai və siyasi xadimi, indi ölkənin baş prokurorluq və Xüsusi İstintaq Xidmətinə Paşinyanla bağlı şikayətçi düşüb. SİA bu barədə erməni mənbələrinə istinadən xəbər verir.**

Nədir onların iddiası? Məsələn, indi onlar Paşinyanın 2018-ci ildə hakimiyyəti güc vasitəsilə ələ alaraq, ölkədə COVID-19-un yayılmasının qarşısını almamaqda ittiham edirlər. (Guya Paşinyan olmasaydı virus nə karə idi Ermənistana yaxın düşə biləydi)



Onların fikrincə, Ermənistanda bu xəstəlikdən ölən 4000 ermənin ölümü də Nikolun adınz yazılmalıdır. Bundan əlavə, məhz baş nazirin çağırışı ilə ölkə ərazisində məhkəmələrin bloklanması təşkil edildi.



Məhz Paşinyan və onun rəhbərlik etdiyi "Mənim adımım" fraksiyası, Ermənistan Konstitusiya Məhkəməsi hakimlərinə istefa vermələri şərti ilə ömürlük təqaüdlərin təyin edilməsi haqqında qanun qəbul etdirdi.

Məhz Ermənistanın Baş naziri Nikol Paşinyanın qərarı ilə 2018-ci il üçün müdafiə alqı-satqısı qrafiki dəyişdirildi. Nəticədə, hava hücumundan müdafiə sistemləri əvəzinə döyüş sursatı olmayan "Su-30 SM" təyyarələri alındı. 44 günlük müharibə ərzində dövlət mediası ictimaiyyətə yalan məlumatlar verdi, bunun nəticəsində lazımi səfərbərlik həyata keçirilmədi və son olaraq məğlubiyyətlə üzləşdik.

Məhz Silahlı Qüvvələrin Ali Baş Komandanı postunu qəsb edən baş nazirin səriştəsizliyi, onun arvadı Anna Akobyanın hərbçilərin işinə etdiyi yersiz müdaxilələr üzündən erməni ordusunu "qəhrəman oğulları" həlak oldu. Məhz Paşinyan noyabrın 9-da səlahiyyətlərini aşaraq erməni xalqından xəbərsiz Ermənistan dövlətçiliyinin mövcudluğunu təhlükəyə atan təslim bəyannamə imzaladı. Bu, bəs deyilmiş, hələ indi də ölkə maraqlarına qarşı yönəlmiş hərəkətlərini davam etdirir.

Bilirsiniz burada maraqlısı nədir? Dediklərini cinayət kimi dəyərləndirib bu halların tam, obyektiv və hərtərəfli araşdırılmasını xahiş edən imza sahiblərinin dünənədək Paşinyanı təqdir eləmələri. Yeri gəlmişkən, burada bizim "...yıxılana balta calan cox olar" məsəli necə də yerinə düşür.

***Ağasəf Babayev***

# Erməni etirafı: itirilmiş dövlət...

**Bu gün Paşinyanı artıq baş nazir kimi deyi, sadəcə olaraq, baş nazir kürsüsündə oturdulmuş bir müqəvva kimi qəbul edən ermənilər nə qədər haqlı olduqlarını söyləməyə çətinlik çəksək də, amma onların başqa bir fikirlərinə haqq qazandırmaq olar. Məsələn, onların Ermənistanın dövlətə çevrilməmiş bir ölkə və burada çox şeyin onlardan aslı olmadıqlarını demələrinə haqq qazandırmaq olar. SİA bu barədə erməni mətbuatında yer alan yazıların xülasəsinə istinadən xəbər verir.**

Maraqlıdır ki, ermənilər daha bir şeydən-Ermənistanın artıq öz yolundan çıxmasından, ayağı yer tutan ermənilərin Zvartnots hava limanına axın etməsindən narahatdırlar. O da maraqlıdır ki, bəzi ermənilər hələ də qış yuxusunda olan həmvətənlərinin yuxudan ayılmamasını istəyirlər, çünki əmindirlər, onlar da başqaları kimi ölkədən qaçacaqlar. Bundan əlavə, hazırda erməniləri ən çox qorxudan sabah İrəvanda türk dilində danışanlarının sayının artmasıdır. Bax, bu ermənilər üçün qəbuledilməzdir. Cünki Ermənistanda hamı dünyanın ən qədim dili olan erməni dilində danışmalıdır. Amma necə? Axı, yaşamaq üçün işləmək də lazımdır. İşləməyə isə Ermənistanda iş yeri yoxdur. Bu gün ölkədə nəinki işləyənlərə, heç pensiyaçılara belə verməyə vəsait tapılmır. Belə olan halda, ermənilərin etirafına görə, sabah İrəvanda erməni pensiyaçılarının Ankaradan pensiya indeksləşdirilmələrini tələb etməsi ölkədə çoxlarına təəccüblü də görünməyəcək.



Bu gün Ermənistanda yaşantıları sirk manejində yaşananlarla eyniləşdirən ermənilərə görə, onlara hələ də çatmayan baş nazir vəzifəsini icra edən Nikolun hökumət iclasları adı altında toplantı keçirməsidir. Onlara görə, bu gün Paşinyanın "Bayramlar və unudulmaz tarixlər haqqında", ölkədə vergi ödəyiciləri gününün təsis edilməsi və s. tipli müzakirələr aparmasının nə önəmi var?

"Belə bir rəsmi bayramlar vətəndaşları vergi öhdəliklərini hörmətlə yerinə yetirməyə və bununla fəxr etməyə təşviq etmək üçün lazımdır". Al, bu da sənə, Dövlət Gəlir Komitəsinin rəhbəri Edvard Ohannisyanın baş nazirinə hörmətinin inikası. Qeyd edək ki, ermənilər dövlət rəhbərlərinə daha aktual, bu gün böyük önəm kəsb edən məsələlərin çıxarılmasını tələb edirlər. Məsələn, ermənilər Paşinyan komandasına "mobil telefonların məktəbə gətirilməsi ehtimalı", "gecə kolbasa satışının qadağan edilməsi" və bir sıra digər günün vacib məsələlərini də dövlət iclaslarında müzakirə olunmasını təklif edirlər.

Ermənilərin başqa bir etirafına görə, bu gün ölkədə, loru dildə desək, heç "it də yiyəsini tanımır". Hazırda Ermənistanda günahsızları deyil, günahkarları mükafatlandırırlar. İmkanı olanlar isə, ölkədə yaranmış hakimiyyətsizlikdən yararlanmağa başlayıblar. Təbii ki, ermənilər bunu deyərkən, ilk olaraq, Anna Akopyanı nəzərdə tuturlar. Onun Moskvadan sonra, Los-Ancelesə yeyib-içməyə getməsini ac erməni xalqına hörmətsizlik kimi dəyərləndirirlər.

"Mən əcdadlarımı qınayıram, onlara lənət edirəm, çünki bu gün bizim daha ləyaqətli və qürurlu yaşamağımız üçün heç bir şey etmədilər". Bunu baş nazir Nikol Paşinyan hakimiyyətə gəlməmişdən əvvəl söyləmişdi. Təbii ki, bu fikirləri oxuyanların bəziləri, lap elə çoxu, haradasa, Nikola haqq qazandıra bilər. Erməni olanda nə olar, yəqin o da bəzi açıqfikirli ermənilər kimi, "xalqının daşürəkliliyi və yekəxanalığı, həqiqəti inkar etməyi xoşladıqlarını" (Movses Xorenasi) anlayıbmış.

***A. Babayev***

# Gültəkin Hacıbəyli reallığı: korrupsioner, satqın və xəyanətə alışıq tipaj

**Əvvəli aşağıdakı linkdə:**

https://sia.az/az/news/politics/852886.html

Ötən yazımızda "Milli Şura"nın koordinasiya şurasının üzvü Güktəkin Hacıbəylinin millət vəkilliyi dövründə vəzifəsindən sui-istifadə edərək 5 milyonluq korrupsiya əməllərinin qiymət preyskurantını təqdim etmişdik. Çoxsaylı mülklər, bahalı avtomobillər, hektarlarla mənimsənilmiş torpaq sahələri və s. qanunsuzluqları sübut edən digər əməllərin hər biri əslində ciddi şəkildə araşdırılmalı, qanunamüvafiq olaraq nəticəsini tapmalıdır.




ANALİTİKA+VİDEOFAKT

### Daha çox qazanmaq, dövlətdən oğurlamaq planlarını işə salıb və hesabını 5 milyonluq korrupsiya vasitəsi ilə artırıb

Lakin o da sirr deyil ki, hakimiyyət cinahında yer alarkən, bu adam heç də dövlətçilik maraqlarına xidmət etməyib, əksinə, G.Hacıbəyli "dövlətçilik maraqlarının müdafiəsi" adı altında pərdələnib, həmçinin seçiciləri tərəfindən ona göstərilmiş etimaddan, eləcə də vəzifə səlahiyyətlərindən şəxsi mənfəətləri üçün istifadə edib. Nəticədə daha çox qazanmaq, dövlətdən oğurlamaq planlarını işə salıb və hesabını 5 milyonluq korrupsiya vasitəsi ilə artırıb. Hər şey üzə çıxdıqdan sonr isə, vaxtilə müdafiə etdiyi hakimiyyət nədənsə onun üçün "pisə" çevrilib və dönüb-olub qatı, radikal müxalifətçi.

Daha dəqiq desək, əgər bu gün anti-milli "Milli Şura"nın tərkibində yer almasına və "odlu-alovlu" çıxışlar etməsinə baxmayaraq, bu təhlükəli qadının səmimiyyətinə yenə də inanmaq olmaz. O, heç də "müxalif baxış" adı altında "siyasi mövqe" sərgiləmir, əslində yenə də köhnə ampuasında qalaraq, indi də zamanında dövlətdən korrupsiya əməlləri hesabına oğurladığı mal-mülklərini qorumağa, əldən çıxarmamağa çalışır.

### Maxinator guya ki, müxalifətə keçməyə qərar verir...

Və o, həmin Gültəkin Hacıbəylidir ki, deputat olarkən dövləti və dövlət başçısını dəstəkləyən çıxışlar edirdi. Lakin mülkiyyət maxinasiyaları üzə çıxdıqdan sonra və seçiciləri də onun Goranboy rayonundakı özbaşınalığından bezdiyi üçün onu deputat seçmədiklərinə görə adıçəkilən maxinator guya ki, müxalifətə keçməyə qərar verir. O, düşünür ki, müxtəlif yollarla ələ keçirdiyi 5 milyonluq korrupsiya mülklərini yalnız müxalifətçi obrazı ilə qoruya bilər. Amma onun bu oyunbazlığının hər hansı bir istədiyi nəticəni verməsi inandırıcı görünmür.

### Azərbaycanda vəzifəsindən, siyasi-ictimai baxışından asılı olmayaraq, hər kəs qanun qarşısında bərabərdir!

Əgər bu gün etimad göstərilmiş dövlət məmurlarının fəaliyyətlərində hər hansı bir qanunsuzluq, cinayət halları aşkar edilirsə, heç bir fərq qoyulmadan həmin məmurlar məhkəmə qarşısına çıxarılır və kirli əməllərinin hesabını verirlər.

Bu baxımdan, əgər sabah-birigün G.Hacıbəyli də məhkəmə qarşısına çıxarılarsa, onun "Milli Şura"dakı "həmdərdləri" heç də hay-haray salıb, "siyasi təqib" tipli iddialarla çıxış etməsinlər. Çünki Azərbaycanda vəzifəsindən, siyasi-ictimai baxışından asılı olmayaraq, hər kəs qanun qarşısında bərabərdir!

Hələlik isə, təqdim edilən videoda G.Hacıbəylinin əqidə dəyişkənliyini, qeyri-səmimiliyini, sözün əsl mənasında isə aktyorluq məharətini sübuta yetirən fraqmentə baxmağa dəyər...

***Rövşən RƏSULOV***

# Azərbaycanda ilk dəfə: dənizdə mobil internet!

**Bakcell şirkəti Azərbaycanda ilk dəfə olaraq gəmilərdə və neft platformalarında mobil internet təqdim edib. Bundan sonra şirkətin korporativ abunəçiləri mobil internetdən təkcə quruda yox, dənizdə də istifadə edə biləcəklər. Ölkədə fəaliyyət göstərən ən iri neft şirkətlərindən biri ilə dənizdə mobil internet xidmətlərinin göstərilməsinə dair yeni imzalanmiş müqaviləyə əsasən, ilkin mərhələdə "Bakcell"in mobil internet xidməti 4 dəniz gəmisi və 1 neft platformasında istifadəyə verilib.**




"Biz çalışırıq ki, abunəçilərimiz Azərbaycanın ən üstün mobil şəbəkəsi ilə yanaşı ən keyfiyyətli müştəri təcrübəsindən yararlana bilsinlər. Bu layihə sayəsində gəmidə və neft platformalarında çalışan və dənizdə uzun müddət vaxt keçirən insanlar öz ailə üzvləri və yaxınları ilə daim ünsiyyətdə qalacaqlar. Korporativ və fərdi abunəçilərimizi bazarda ən üstün müştəri təcrübəsi ilə təmin etmək üçün Bakcell öz şəbəkəsini və xidmət keyfiyyətini təkmilləşdirməyə davam edəcək. Məqsədimiz xidmətlərimizdən istifadə edən hər kəsin mobil telekommunikasiya xidmətlərinə dair ehtiyac və tələblərinin tam şəkildə ödəməkdir", deyə Bakcell şirkətinin baş icraçı direktoru Rainer Rathgeber bildirib.

Dənizdə mobil internet xidmətinin göstərilməsi Azərbaycan üçün bir yenilikdir. Bu yenilik sayəsində gəmi və neft platformalarının personalı saniyədə 10 meqabitə qədər sürəti olan limitsiz və yüksək keyfiyyətli mobil internetdən yararlanırlar.

Qeyd edək ki, oxşar layihələr indiyə kimi Meksika, Rusiya və Kanada daxil olmaqla çox az ölkədə həyata keçirilib. Dünyaca məşhur OOKLA şirkəti üç dəfə ardıcıl olaraq Bakcell şəbəkəsini Azərbaycanın ən sürətli mobil şəbəkəsi adlandırıb.



RƏFİQƏ

## "Qarabağ Azərbaycandır"a şahidlik edən Şəhidlər

### Bəs Vətən satqını Əli Kərimli nə istəyir?

Deyirlər, torpaq su ilə qarışanda palçıq, şəhid qanı ilə qarışanda isə Vətən olur. Bəli, bu 44 gün ərzində igid oğullarımız Vətən yolunda canını sipər etdi, qanları ilə bu torpağı suladı, qorudu ki, Vətən torpağını qeyrət, qəhrəmanlıq, hünər, təəssübkeşlik bitsin, göyərsin...

Şəhid qanı axmayan torpaqdan Vətən olmaz,- dedilər Şəhidlərimiz. Onu da dedilər ki, bu gün biz Şəhid olmuruq, işğal olunan torpaqlarımızın azad olunmasında Şahidlik edirik. Azad olunan torpaqlarımızda üçrəngli azərbaycan Bayraqlarımızın qaldırılmasına Şahid oluruq!. Çünki bu gün bu əsgərlərimiz üçün cəbhə bir ananının oğullarının, bir bacının qardaşlarının bir olduqları döyüş meydanıdır. Şəhid olan əsgərlərimiz, yurdsevər ərənlərimiz, bir an düşünmədən canını Vətən, torpaq yolunda fəda edən cəngavərlərimiz hər kəsə nəsib olmayan Tanrının, haqqın dərgahındasınız!..

Düşməndən qisas almağa can atan, qeyrətli, təəssübkeş, Vətənin ən layiqli oğullarısınız! "Vətən üçün ölməyə dəyər!" - deyən əsgərlərimiz düşmən qarşısında diz çökməyən, diz çökdürən ərənlərimizsiniz. Qeyrətli igidlər, Vətənin dar günündə düşmən qarşısına - önə çıxdınız, sinənizi sipər edib ömrünüzü bu millətin ömrünə caladınız. Doğulduğunuz torpaqdan yüzlərlə kilometr uzaqda "Öncə Vətəndir", - deyib canından keçən igid oğullarımız, sizin igidliyinizin nəticəsidir ki, bu gün bütün evlər, eyvanlar, yollar üçrəngli Bayrağımızla bəzənib. O Bayraq ki, sizin kimi oğulların sayəsində ucalır, dalğalanır. O bayraqlar ki, sizin şücaətinizin sayəsində Cəbrayıla, Qubadlıya, Füzuliyə, Zəngilana, Ağdama, Şuşaya, Kəlbəcərə, Laçına - Qarabağ Azərbaycandır!a yol aldı. Və özünüz də Qarabağ Azərbaycandır! uğruna canınızı qurban verdiyiniz üçrəngli bayrağa bükülüb qəhrəman kimi qayıdırsınız elimizə, evinizə, yurdumuza, uğrunda can verdiyiniz Vətən torpağına. Bax, budur Şahidlik edən oğullarımızın Şəhidliyi!. Bax, budur qeyrət, hünər! Siz Azərbaycanın rəşadətli, igid əsgərlərisiniz! Siz xilaskar əsgərlərimizin qanı ilə yoğrulan torpaqlarımızın xilaskarlarısınız. Çünki Qarabağ Azərbaycandır!

Ali Baş Komandanımız İlham Əliyev cənabları dediyi kimi: "Bizim əsgərlərimiz xilaskar əsgərlərdir, erməni əsgərləri işğalçı əsgərlərdir".

Bəli, bizim əsgərlərimiz xilaskar əsgərlərdir, silah, tkexnika düşməndə də var, ancaq o texnikanı istifadə edən o qol deyil, düşmən qoludur. Çünki Azərbaycan əsgərinin məsləki Qürurdur, Zəfərdir, Vətən torpağına üç rəngli Azərbaycan Bayrağını sancmaqdır! Bu gün Vətən torpağımız igidlərimizin qanı ilə düşməndən azad olundu. Şəhidlərimizin də qisası alındı! Və torpağını öz qanları ilə yoğuran, Vətən edən, Vətən uğrunda ölümü ilə əbədiləşən ŞƏHİDLƏRİMİZİN məzarının başında qələbə soraqlı üçrəngli ay-ulduzlu Bayrağımız qürurla dalğalanır!

Ancaq Vətəni, qeyrəti, namusu olmayanlar sosial şəbəkələrdə Qarabağ müharibəsi əlilləri və şəhid ailələri adından istifadə edib siyasi divident qazanmağa çalışan AXCP sədri Əli Kərimlinin daha bir antitəbliğat kampaniyası aparsa da, sonda yalan üzərində qurulmuş "informasiya tələsini" ifşa və iflas etməklə AXCP sədrinin planlarını alt-üst etmiş olur. Elə bu dəfə bu baxımdan istisna olmadı. Belə ki, Əli Kərimli Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək cəmiyyətdə çaşqınlıq yaratmağa çalışdı. Guya ki, bu kateqoriyadan olan insanlara cəmiyyətimizdə biganə münasibət var, dövlətin onlar üzərində heç bir qayğısı və diqqəti yoxdur. Bu yerdə Əli Kərimlinin bu yalanları ilə bağlı sosial şəöəkələrdə böyük təpkilər var. Mərdan Şahıyev adlı istifadəçinin fikirlərini demək kifayətdir: "AXCP yarandığı gündən Əli Kərimov kimi simasını itirmiş birinə görə o partiyada adam qalmayıb. Xarici havadarlarının və aldığı qrantların hesabatını vermək üçün Əli Kərimov yenə "qotur salmış dana kimi" qaşınır...Yaddaşın pozulubsa, 1990-cı il hadisələrini görmüş insanlar hələ də yaşayır. İstifadə etdiniz, hakimiyyətə gəldiniz. Az qalmışdı ki, Azərbaycan kimi bir ölkəni darmadağın edəsiniz. Yaxşı ki, Heydər Əliyev hakimiyyətə gəldi, dağıtdığınızı nəinki bərpa etdi, Azərbaycanı bütün dünyaya tanıtdırdı. Heydər Əliyevin qurub yaratdığını davamçısı İlham Əliyev daha da çiçəkləndirir... Mən də bir Qarabağ döyüşçüsü kimi sizə xəbərdarlıq edirəm. Bizim adımızdan bir daha istifadə etsəniz dünyanın hegemon dövlətləri iqtisadi və siyasi tənəzzülə uğradığı bir vaxtda Azərbaycanda stabilliyi qoruyub saxlayan ölkə başçısı, Ali Baş Komandanın sadiq əsgəri kimi məni və mənim kimi minlərlə döyüşçünü qarşında görəcəksən".

Bir sözlə, Vətənini sevən gənclər Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və veteranları adından istifadə edərək antitəbliğat aparmağa cəhd edən Əli Kərimlini elə peşman etdilər ki... Sosial şəbəkələrdən istifadə edən ictimaiyyət nümayəndələri bu dəfə də dövlətin yanında olduqlarını, cənab Prezident İlham Əliyevin siyasətini dəstəklədiklərini sübut etdilər. Sübut etdilər ki, cari ilin yanvar ayının 25-də imzalanmış "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam da digər sərəncamlar və fərmanlar kimi Azərbaycanın ərazi bütövlüyü, müstəqilliyi və konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olmuş vətəndaşların və şəhid ailələrinin sosial müdafiəsində həyata keçirilən sosial siyasətin əsas istiqamətlərindən biridir. Bu Sərəncam çoxsaylı ailələrə mənzil ehtiyaclarını qısa zaman kəsiyində ödəməklə onlara böyük sevinc bəxş edəcək, bununla da şəhid ailələrinin sosial müdafiəsi daha da yaxşılaşacaq.

Və hər kəs Vətəni yolunda şəhid və qazi olanların valideynləri qarşısında baş əyir, fəxr edirik. Fəxr edirik ki, şərəflə qorudunuz Vətəni!, Şərəflə qorudunuz Vətənin qeyrətini, torpağı Vətən etdiniz, Vətəni bütöv etdiniz. Hər qarışı şəhid qanı ilə yoğrulan, şəhid qoxusu duyulan bu torpaq bizə ötürülən əmanətdir. Çünki bu torpaqlar Şəhid qanı ilə yoğrulan Qarabağ Azərbaycandır!

# Həm işləyib, həm uşaq böyütmək: necə etməli?

ARAŞDIRMA

### Hər iki valideyni işləyən uşağın tərbiyəsi ilə kim məşğul olmalıdır?

Ana olan qadınların çoxu övladı doğulduğu vaxt iş həyatının tamamilə bitəcəyini və ya əvvəlki kimi olmayacağını düşünür. Bir çoxları da "əvvəl karyera, sonra uşaq" prinsipini əsas götürür. Düzdür, bu cür ailələr bizim cəmiyyətimizdə nisbətən azdır. Bizim cəmiyyətin spesifik xüsusiyyəti var- əksər ailələrimiz övlad sahibi olmağa tələsir. Mövzumuz, işləyən valideynlərin uşaqlarına necə baxması və bu cür ailələrdə uşaq psixologiyası və tərbiyəsinin necə tənzimlənməsi ilə bağlıdır.

### Heç bir iş öz övladınla vaxt keçirməkdən daha vacib ola bilməz

Təəssüflər olsun ki, hər bir işdə sistemli və proqramlı davranmağı planlaşdıran insanlar bu məsələdə necə deyərlər "başısoyuqluq" edirlər. Bir çoxlarına elə gəlir ki, uşağa baxmaqla işləmək heç cür alına bilməz. Halbuki, oxuyaraq və ya işləyərək övlad dünyaya gətirən ailələrimiz də az deyil.

Hər iki valideynin işlədiyi ailələrdə bu problem həmişə var olub, amma bir çox ailələrdə valideynlər bunun öhdəsindən gəlir. Düzdür, valideynləri anlamaq olar, elə bir zamandır ki, yalnız ailə başçısının çalışması və qazandığı pul ilə ailə saxlamaq olmur. Bu halda ailənin xanımı da işə girir və ömür yoldaşına dəstək olur.

Amma bir çox ailələr də var ki, qadın ehtiyac olmadığı halda da işləmək üçün israr edir. Bu, pis hal deyil, qadın cəmiyyətdə yerini tutmaq istəyir, amma övladını tərbiyə etməklə də cəmiyyətə daha çox xeyir verə bilər.

Bu halda ailədə uşaq(lar) varsa, uşaq bağçasına və ya ailənin yaxınlarına əmanət edilir. Şübhəsiz ki, övladımız ən çox qiymət və önəm verdiyimiz varlıqdır. Amma onun gələcəyi üçün çalışarkən, maddi problemlərlə boğuşarkən övladımızın bizə nə qədər ehtiyac duyduğunu gözardı edirik.

Hazırda qadınlar, istər ailə büdcəsinə kömək məqsədi ilə, istərsə də həyat standartlarını yüksəltmək, peşə sevgisi, cəmiyyətdə yer qazanmaq, yeni insanlar tanımaq və həyat yoldaşı kimi yüksəlmək və s. kimi bir sıra səbəblərdən işləmək istəyirlər.

İşləyən qadınların böyük əksəriyyəti anadır. Nəinki qadının, eləcə də ata olan kişilərin də ailədə və uşaq tərbiyəsində önəmli rol oynaması vacibdir. Amma mütəxəssislər deyir ki, valideynlərdən birinin çox vaxt ananın uşaq üzərində təsiri böyük olur. Uşaq daha çox anadan qayğı və diqqət tələb edir.

### İşləyən ana: "Çalışan qadın ailəsinə vaxt ayıra bilmədiyini deyirsə, bu, bəhanədir..."

Qəhrəmanımız gənc ailədir. Ata, ana və oğulları. Ailəsi Sumqayıtda yaşayır, ata və ana işləyir. Ana Sumqayıt Dövlət Universitetində elmi işçidir, ata avtomobil profilaktoriyasında çalışır. Ana deyir ki, övladı anadan olandan sonra bir müddət işinə ara verməli olub: "Oğlum doğulandan sonra ona bir müddət özüm baxdım, amma məlum səbəblərdən işləmək məcburiyyətində idim. Ona görə də, onu anama və kiçik bacıma əmanət etdim. Oğlumla yalnız axşamlar və istirahət günləri ünsiyyətdə oluruq. Bu qədər az ünsiyyət nə məni, nə də oğlumu qane edirdi. Amma maddi problemlər işləməyə təhrik edir".

Uşağın məktəbə gedib-gəlməsi, dərslərini hazırlaması və onunla zaman keçirilməsi barədə də danışdıq. Ana deyir: "Səhərlər tez oyanıram, axşam üçün yemək hazırlayıram, daha sonra səhər yeməyini hazır edirəm, yeyib evdən birlikdə çıxırıq, həyat yoldaşım maşınla oğlumuzu məktəbə aparır, daha sonra məni instituta qoyur, daha sonra özü işə gedir. Mənim işim axşam saat 6-da bitir, ona görə nahar fasiləsində atası uşağı məktəbdən götürür, nənəsigilə aparır və yenidən işə dönür. Axşam ya mən, ya da atası uşağı oradan götürüb evə gəlirik. Yeməyi əvvəlcədən hazırlayıb qoyuram, ona görə axşamlar o qədər də cox işim olmur, uşaqla vaxt keçirə bilirik, dərslərinə nəzarət edirəm, problemləri və istəkləri barədə danışırıq".

### Ata: "Evimizi kreditlə almışıq, hər ikimiz işləyərək ödəyə bilirik"

Ata deyir ki, indi ailə başçısı və oğul atası olmaq çətindir: "Oğlum bizimlə daha çox zaman keçirmək istəyir. Elə biz də bunu çox istəyirik. Amma təəssüf ki, çox işləməyə də məcburuq. Evimizi kreditlə almışıq, ödənişimizi hər ikimiz işləyərək ödəyirik. Amma bu, o demək deyil ki, övladımıza zaman ayırmırıq. Səhərlər və axşamlar onunla vaxt keçiririk, istirahət və tətil günləri gəzintiyə çıxırıq, onunla bol söhbət edirik, istəkləri ilə maraqlanırıq".

Evin xanımı deyir ki, işləyən xanımların övladlarına zaman ayıra bilməməklərindən şikayət etməyə haqqı yoxdur: "Azərbaycan reallıqlarına görə bizim xanımlar o qədər də çox işləmirlər, ən çox işləyən xanım saat 17-dək çalışır. Böyük əksəriyyəti isə, müəllim, tərbiyəçi və tibb işçisidir ki, onların da çoxunun işi saat 14-15-də, uzağı 17-də başa çatır. Bundan sonra evinə və ailəsinə zaman ayırmağa kifayət qədər vaxtı var. Uşağa nənəsi, xalası, ya da kimsə baxa bilər, hətta anadan da yaxşı baxa bilərlər, amma ana qayğısına heç nə çatmaz. Uşaq bunu gözləyir, ana-ata nəvazişi həmişə lazımdır".

İndi isə keçək balaca qəhrəmanımıza. 11 yaşı var, 4-cü sinifdə oxuyur. Ata-anasını çox sevdiyini deyir, bir də nənəsini: "Atamla anam işdə olanda evdə tək qalmayım deyə məni nənəmgilə qoyurlar, nənəgil yaxınlıqda olurlar. Nənəm məni çox istəyir, dərslərimə də kömək edir, dadlı yeməklər bişirir, dərslərini hazırlayıb qurtaranda həyətə gəzməyə çıxarır. Babam, xalam, dayım da mənə dərslərimdə kömək edirlər. Amma anam çox savadlıdır, o mənə hər şeyi öyrədir. Atam da ustadır, mənə bəzi şeyləri düzəltməyi öyrədir".

### Psixoloq: "Bütün günü işləyən ana övladının gözündə robotdan fərqli deyil"

Mütəxəssislər deyir ki, anası işləməyən uşaqlara nisbətən anası çalışan uşaqlarda bəzi problemlər olur. Bu, dərketmə, davranış və zəka kimi faktorlardır. Çünki ana zamanının çoxunu işə ayırır və nəticədə uşaqla vaxt keçirmir. Uşaqda qayğıya, nəvazişə ehtiyac sindromu yaranır.

Statistikaya görə, hər ikisi işləyən valideynlər övladlarının tərbiyələrinin doğru aparılmamasına səbəb olurlar. Çünki yalnız axşamdan-axşama uşağını görən valideyn ona qarşı mülayim və olduqca yumşaq olurlar ki, bu da uşağın tərbiyəsinə təsir göstərir.

Türkiyədə aparılan bir araşdırma isə çox təəccübləndirici bir nəticə ortaya çıxdı. Valideynləri işləyən uşaqların 85-90%-i belə bir vəziyyətdən şikayətçi deyil. Valideynləri işləyən uşaqların yalnız 10-15%i ana-ataları ilə daha çox vaxt keçirmək istədiyini söyləyib.

Psixoloq Xatirə Səfərova deyir ki, uşaqla keçirilən müddətin uzunluğundan keyfiyyəti vacibdir: "Ananın uşaq ilə birlikdə keçirdiyi müddət artdıqca keyfiyyəti azala bilər. Evdar xanımlar uşaqla daim bir yerdə olduqları üçün bir müddətdən sonra bu vəziyyətdən sıxıla da bilər. İşləyən analar isə ümumiyyətlə uşaqları ilə kifayət qədər vaxt keçirə bilmədiklərindən şikayətlənirlər"

Ekspert deyir ki, səhərdən-axşamacan işləyən ana övladının gözündə robotdan fərqli deyil: "Cəmiyyətimizdə elə qadınlar var, övladı olandan bir həftə sonra onu kiminsə himayəsinə verib işləyir. Br az dərinə getsən görərsən ki, ana bir müddət işləməsə də ailənin problemi yaranmaz. Amma bir çox qadın övladına zaman ayırmaqdansa işləməyi üstün tutur."

Xatirə xanımın sözlərinə görə, qadınlar bunu cəmiyyətdəki mövqelərini itirməmək üçün edirlər: "Ümumiyyətlə bunun səbəbi çoxdur, amma ən geniş yayılmış səbəb qadının cəmiyyətdən geri qalma qorxusudur. Qadınlar hesab edir ki, evdə uşağa baxdığı müddətdə "korşalır" və yenidən işə başlayanda bir işə yaramaya bilər. Ona görə də tez-tələsik uşağı kiməsə tapşırır və işə qayıdır. Əminəm ki, qadın körpəsinin belə anlarda nə hiss etdiyini bilsə bu addımı atmaz."



### Uşağa kim tərbiyə verməlidir- ata, ana, yaxud nənə-baba?

Bütün uşaqlar anası və atası ilə daha çox vaxt keçirmək istəyir. Uşaqlar üçün oynamağa ən yaxşı tərəf müqabili valideynlərdir. Bizim cəmiyyətdə ata-uşaq münasibəti o qədər də dərin inkişaf etməyib. Təəssüflər olsun ki, atalar övladları ilə az zaman keçirir. Halbuki övladın yetişdirilməsi üçün hər iki valideynə ehtiyac var.

Tipik Azərbaycan ailəsində belə bir vəziyyət hökm sürür: Ata, ana və uşaq(lar)dan ibarət ailə. Ata işləyir, ana uşaqla məşğul olur. Axşam ata işdən gəlir, yeyir-içir, televizora baxır və ya qəzet, kitab oxuyur və yatır. Uşaqla zaman keçirmək heç ağlına da gəlmir. Yaxud: Ata və ana çalışır, uşaq baba, nənə və ya başqa bir qohumun (əmi, bibi və s.) himayəsində böyüyür. Uşaq yalnız axşamlar valideynlərinin üzünü görür. Amma uşağın nənəyə və ya başqa birinə əmanət edilməsi valideynlərin uşaq üzərində məsuliyyət hissini azaldır. Valideynlər, necə deyərlər, "arxayınlaşırlar".

Uşağın nənəyə əmanət edilməsinin bəzi zərərləri də var. Bir gerçəklik də var ki, nənə-baba tərbiyəsi görən uşaqlar necə deyərlər "ərköyün" olur, dediyinin yerinə yetirilməsinə alışırlar. Amma bu o demək deyil ki, nənə-baba himayəsində böyüyən bütün uşaqlar bu cür olur.

Statistika və müşahidələr göstərir ki, ana-ata tərbiyəsi və qayğısı ilə böyüyən uşaqlar cəmiyyətdə daha çox seçilirlər. Belə uşaqlar həm məktəbdə, həm də sonrakı həyatında daha çox uğur qazanır. Çünki onu əhatə edən qayğını və bu qayğının ona verdiyi gücü hiss edir. İşinə övladından daha çox diqqət ayıran analar, düşünməyə dəyməzmi?...

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması" istiqaməti çərçivəsində hazırlanıb*

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

# SƏS

QARABAĞ AZƏRBAYCANDIR!

12 fevral

## Messi 900-cü matçına çıxdı, “Barselona” uduzdu



**İspaniya kubokunun yarımfinal mərhələsinin “Sevilya” ilə ilk oyunu “Barselona”nın kapitanı Lionel Messi üçün əlamətdar olub. Belə ki, argentinalı ulduz hücumçu peşəkar karyerasında 900-cü matçına çıxıb.**

Argentinalı futbolçu bu görüşlərin 758-ni Kataloniya klubunun, 142-ni isə Argentina millisinin heyətində keçirib. Qeyd edək ki, “Sevilya”-”Barselona” matçı meydan sahiblərinin 2:0 hesablı qələbəsi ilə yekunlaşıb.

## Keyn Bobbini də geridə qoydu



“Tottenhem”in futbolçusu Harri Keyn üçün İngiltərə kubokunun 1/8 finalında “Everton”la matç (4:5) əlamətdar olub. İngiltərə klubunun “Tvitter” səhifəsində yer alan məlumatda deyilir ki, sözügedən görüşdə bir dəfə fərqlənən ingilis hücumçu London təmsilçisində vurduğu qolların sayını 209-a yüksəldib. Bununla da o, Bobbi Smiti (208) qol geridə qoyaraq klub tarixinin ən yaxşı 2-ci bombardiri olub.

27 yaşlı futbolçu bu qədər qolu 318 qarşılaşmada vurub. Qeyd edək ki, “Tottenhem” tarixinin ən yaxşı bombardiri 266 qolla Cimmi Qrivsdir.

## “Napoli” Qattuzo ilə bağlı yekun qərarını açıqladı

“Napoli” baş məşqçisi Cennaro Qattuzo ilə bağlı yekun qərarını verib. Qol.az İtaliya mətbuatına istinadən xəbər verir ki, bu barədə klubun idman direktoru Kristiano Cuntoli bildirib. O, 43 yaşlı mütəxəssisi bu mövsümün sonuna kimi istefaya göndərmək fikirlərinin olmadığını deyib: “Hamımız məşqçimizi dəstəkləməyə davam edəcəyik. Bu layihəyə inanırıq və bütün yarışlarda mübarizə aparırıq. Müvafiq qərarlar mövsüm başa çatdıqdan sonra veriləcək”.



Qeyd edək ki, “Napoli” dünən İtaliya kubokunun yarımfinalında “Atalanta”ya 1:3 hesabı ilə uduzaraq turnirdə mübarizəni dayandırıb. Komanda A seriyasında isə 37 xalla 6-cıdır.

## Məşhur basketbolçunun ölümündə erməni izi!

Nəqliyyatda Təhlükəsizlik üzrə ABŞ Milli Şurası bu qənaətə gəlib ki, 2020-ci ildə Amerika basketbolunun ulduzu Kobi Brayantın və daha səkkiz nəfərin ölümü ilə nəticələnmiş helikopter qəzasının ehtimal edilən səbəbi erməni mənşəli pilot Ara Zobayanın düzgün qərar qəbul etməməsi olub. “İki sahil” ABŞ KİV-lərinə istinadla xəbər verir ki, Şuranın qənaətinə görə, Zobayan vizual uçuş qaydaları üzrə uçurdu. Bu o deməkdir ki, pilot helikopterin haraya istiqamətləndiyini görməli idi. Lakin pilot sıx buludlu istiqamətdə uçmağı qərara alıb, nəticədə oriyentasiyanı itirib. Zobayan yalnız cihazlar panelinin köməyi ilə uçmalı idi, lakin həmin gün bu şəraitdə uçmağa icazə almamışdı.

Müstəntiqlər uçuşların təhlükəsizliyinin idarə edilməsi prosesinə müvafiq təhlil və nəzarət olmamasına istinad edərək reysi yerinə yetirən “Island Express Helicopters” şirkətini də təqsirkar hesab ediblər. Bununla belə, onlar qeyd ediblər ki, şirkətin təhlükəsizlik protokollarında müəyyən səhvlər olsa da, bu sənədlər Federal Mülki Aviasiya İdarəsinin qüvvədə olan qaydalarına uyğun olub.

Hadisə 2020-ci il yanvarın 26-da baş verib. Həmin gün “Sikorsky S-76B” helikopteri Kaliforniya ştatındakı Kalabasas yaxınlığında qəzaya uğrayıb. Yol-nəqliyyat hadisələrinin təhqiqatı ilə məşğul olan Şuranın apardığı araşdırmanın nəticələri bir ildən çox müddət keçəndən sonra alınıb. Qəza nəticəsində helikopterdəki 9 nəfərin hamısı, o cümlədən Kobi Brayant və onun 13 yaşlı qızı Canna; Con və Kerri Altobelli cütlüyü və onların qızı Alissa; Sara Çester və onun qızı Peyton; məşqçinin köməkçisi Kristina Mauzer və pilot Zobayan özü həlak olub. Onlar Tauzend-Ouksda gənclər arasında keçirilən basketbol matçına gedirdilər.



## Avtoxuliqanlıq edənlər saxlanılıblar

Şəmkir Rayon Polis Şöbəsinin dövlət yol polisi bölməsinin əməkdaşları rayon ərazisində avtoxuliqanlıq edərək ictimai-asayişi nümayişkarənə şəkildə pozan və bununla da vətəndaşların haqlı narazılığına səbəb olan avtoxuliqanlıq hərəkətləri edən sürücünü saxlayıblar.



Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Gəncə regional qrupundan AZƏRTAC-a bildiriblər ki, rayon sakinləri Kənan Hüseynov və Raqif Abbasov idarə etdikləri “VAZ 2107” və “VAZ 2106” markalı avtomobillərlə yollarda intizamsızlıq edərək yol hərəkəti qaydalarını kobud şəkildə pozduqları və avtoxuliqanlıq etdikləri məlum olub. Həmin şəxslər barəsində Şəmkir Rayon Polis Şöbəsinin dövlət yol polisi bölməsinin əməkdaşları tərəfindən inzibati qaydada protokollar tərtib olunub və baxılması üçün məhkəməyə göndərilib.

Məhkəmənin qərarı ilə Rafiq Abbasov 15 gün müddətinə inzibati qaydada həbs olunub və sürücülük hüququndan bir il müddətinə məhrum edilib. K.Hüseynov törətdiyi qayda pozuntularına hüquqi qiymət verilməsi üçün barəsində toplanan material Gədəbəy Rayon Məhkəməsinə göndərilib.

## Koronavirus kimlər üçün risklidir?



**Tanınmış həkim və televiziya aparıcısı Yelena Malışeva koronavirusun ölümcül xəstəlik olduğunu söyləyib. Həkimin sözlərinə görə, virus xüsusilə yaşlı insanlar üçün risklidir. “Yaşı 80-dən yuxarı olan və koronavirusa yoluxan hər üçüncü şəxs ölür, 70 yaşda ölüm riskinə hər dörd nəfərdən birində rast gəlinir, 60-70 yaş arasında isə hər beş nəfərdən biri infeksiyanın qurbanı olur.**

**Yaşlı insanlar peyvəndə daha asan dözür, koronavirusa yoluxma isə ondan min və milyon dəfə daha təhlükəlidir və peyvəndin bütün mümkün mənfi təsirlərini aşır”, - həkim “Jitğ zdorovo!” (Sağlam yaşamaq) verilişində bildirib. Malışeva əlavə edib ki, peyvənd barədə qərar verməzdən əvvəl bütün riskləri ölçmək lazımdır.**

## Zaqatala sakinindən odlu silah götürülüb



Zaqatala rayon sakinindən odlu silah götürülüb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şəki regional qrupundan AZƏRTAC-a bildiriblər ki, Zaqatala Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində Yuxarı Tala kənd sakini Ceyhun Cabbarovdan müvafiq sənədləri olmayan “İJ-16” markalı ov tüfəngi aşkarlanaraq götürülüb.

Həmin şəxs barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsi ilə protokol tərtib olunaraq baxılması üçün məhkəməyə göndərilib.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet “Səs”in komputer mərkəzində yığılır, səhifələnir.
“Azərbaycan” nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600